# YENİ AZƏRBAYCAN

25 iyul 2026-cı il, şənbə
№ 130 (7197)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Bakıdan Avropaya uzanan strateji xətt

## Azərbaycan Avrasiyanın yeni enerji və təhlükəsizlik atlasında əsas həlqə kimi



Bax səh. 3

# Azərbaycan-Çin:
## strateji tərəfdaşlığın gücləndirilməsində partiya diplomatiyasının rolu

Bax səh. 4

# Zəngəzur dəhlizi: geosiyasi rəqabətdən iqtisadi inteqrasiyaya



Bax səh. 2

# Milli Məclisdən ABŞ konqresmenlərinə etiraz

Bax səh. 5

## Azərbaycanın növbəti humanist təşəbbüsü..

Bir neçə gündür ki, UNESCO-nun Dünya İrs Komitəsinin 48-ci sessiyası Cənubi Koreyanın Busan şəhərində davam edir. Sessiyada Dünya İrs Konvensiyasına qoşulmuş 195 dövlətdən seçilən 21 üzv ölkənin nümayəndələri, eləcə də İrs Komitəsinin üzvü olan Azərbaycan nümayəndə heyəti iştirak edir. Dünya İrs Komitəsi UNESCO-nun mədəni və təbii irsin qorunmasına dair 1972-ci il Konvensiyasının əsas idarəetmə orqanlarından biridir. Komitə hər il toplanaraq, Dünya İrs Siyahısına daxil edilməsi təklif olunan yeni obyektləri qiymətləndirir, həmçinin artıq siyahıya salınmış abidələrin və ərazilərin mühafizə vəziyyətini nəzərdən keçirir. Qərarlar UNESCO-nun məsləhətçi qurumlarının və Katibliyinin hazırladığı ekspert rəyləri əsasında qəbul edilir...

Bax səh. 5

## Mina terroru davam edir...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.

Belə ki, iyulun 23-də işğaldan azad edilmiş Cəbrayıl rayonunun Həsənli kəndi ərazisində mina partlayışı hadisəsi baş verib. Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri bu barədə məlumat yayıb. Bildirilib ki, 1979-cu il təvəllüdlü Cəbrayıl rayonu Qumlaq kənd sakini Şəmilov Elşən Bəhlul oğlu minalardan təmizlənməmiş ərazidə traktorla yer şumlayarkən mina partlayışı nəticəsində xəsarət alıb...

Bax səh. 5

## Vaşinqtonun yeni Yaxın Şərq strategiyası

Bax səh. 7



## Avropa yenidən silahlanır

Bax səh. 7

## Nəqliyyatda Məlumat Anbarı yaradılır: Nə dəyişəcək?

Bax səh. 6



# Bakıdan Daşkəndə zəng...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlətimizin başçısı Şavkat Mirziyoyevi doğum günü münasibətilə ürəkdən təbrik edib, ona uzun ömür, cansağlığı, qardaş Özbəkistan xalqının xoşbəxt gələcəyi və firavanlığı naminə həyata keçirdiyi şərəfli ali dövləti fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər arzulayıb.

Prezident Şavkat Mirziyoyev səmimi təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək, öz növbəsində Azərbaycan xalqına firavanlıq və rifah arzulayıb.

Telefon söhbəti zamanı Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətinə toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub.

Dövlət başçıları, həmçinin gələcək təmaslar barədə razılıqlarını ifadə edərək, qarşılıqlı maraq doğuran məsələlərə və ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

# Zəngəzur dəhlizi: geosiyasi rəqabətdən iqtisadi inteqrasiyaya

## İranın narahatlığı, Ermənistan üçün fürsət, Azərbaycanın rasional strategiyası

Son illər siyasi-iqtisadi proseslərin inkişafı sübut edir ki, qlobal mühitdə nəqliyyat-kommunikasiya xətləri artıq yalnız iqtisadi əməkdaşlığın tərkib hissəsi kimi deyil, həm də geosiyasi rəqabətin əsas elementlərindən biri kimi çıxış edir. Dünyada formalaşan yeni siyasi və iqtisadi nizam göstərir ki, dövlətlərin qlobal ticarət zəncirində tutduğu mövqe getdikcə daha çox onların malik olduqları tranzit imkanları ilə müəyyənləşir. Bu gün Avropa ilə Asiya arasında yükdaşımaların təhlükəsiz, qısa və dayanıqlı marşrutlar üzrə həyata keçirilməsi həm regional, həm də qlobal güclərin diqqət mərkəzindədir. Son illərdə müxtəlif regionlarda müşahidə olunan geosiyasi gərginliklər, müharibələr və iqtisadi sanksiyalar da alternativ nəqliyyat dəhlizlərinə marağı əhəmiyyətli dərəcədə artırıb. Məhz belə bir şəraitdə Cənubi Qafqaz regionu yeni beynəlxalq logistika xəritəsində strateji əhəmiyyətini daha da gücləndirir.

2020-ci ildə başa çatan Vətən müharibəsindən sonra regionda yaranan yeni reallıqlar Azərbaycanın təşəbbüsü ilə irəli sürülən genişmiqyaslı kommunikasiya layihələrinin aktuallığını artırdı. Rəsmi Bakı postmüharibə dövründə yalnız siyasi sabitliyin möhkəmləndirilməsini deyil, eyni zamanda, iqtisadi əməkdaşlığın dərinləşdirilməsini prioritet istiqamət kimi müəyyənləşdirdi. Bu baxımdan, Orta dəhlizin mühüm seqmentlərindən biri kimi Zəngəzur istiqamətli nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası ideyası təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa bağlantının yaradılması məqsədi daşımır. Layihə, eyni zamanda, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutlarının kəsişdiyi yeni logistika platformasının formalaşmasına xidmət edən mühüm təşəbbüs kimi qiymətləndirilir.

### Vaşinqtonda rəsmiləşən yeni əməkdaşlıq perspektivi

Postmüharibə dövründə Cənubi Qafqazda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası istiqamətində aparılan müzakirələr beynəlxalq platformalarda da diqqət mərkəzində olub. Bu kontekstdə ötən il Vaşinqtonda keçirilən Azərbaycan, Ermənistan və ABŞ üçtərəfli görüşü regionda kommunikasiyaların açılması ilə bağlı yeni mərhələnin başlanğıcı kimi qiymətləndirildi. Görüş zamanı nəqliyyat marşrutlarının bərpası, iqtisadi əməkdaşlığın genişləndirilməsi və tranzit imkanlarının artırılması ilə bağlı müxtəlif mexanizmlər müzakirə olundu. Azərbaycan tərəfi bu prosesi regionda davamlı sülhün və iqtisadi inteqrasiyanın mühüm elementi kimi təqdim etdi.

Rəsmi Bakının mövqeyinə görə, Zəngəzur dəhlizi (TRIPP) yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantının təmin edilməsi demək deyil - layihə eyni zamanda Orta Dəhlizin imkanlarını genişləndirən və Avropa ilə Asiya arasında yükdaşımaların daha çevik şəkildə həyata keçirilməsinə xidmət edən yeni logistika xətti formalaşdırır. Azərbaycanın uzun illər ərzində dəmir yolu, avtomobil yolları, liman və logistika infrastrukturuna yatırdığı investisiyalar da bu marşrutun gələcək perspektivlərini gücləndirən əsas amillərdən biri hesab olunur.

Vaşinqtonda aparılan müzakirələr və əldə olunan razılaşmalar göstərdi ki, regionda kommunikasiyaların açılması artıq yalnız ikitərəfli münasibətlərin predmeti deyil, daha geniş beynəlxalq iqtisadi maraqların tərkib hissəsinə çevrilməkdədir. Qlobal ticarət marşrutlarının şaxələndirilməsi fonunda Cənubi Qafqazın tranzit imkanlarına maraq artmaqdadır. Azərbaycan hesab edir ki, qarşılıqlı etimad və beynəlxalq hüququn prinsipləri əsasında həyata keçiriləcək əməkdaşlıq region ölkələrinin iqtisadi potensialını artırmaqla yanaşı, uzunmüddətli sabitliyin möhkəmlənməsinə də xidmət edə bilər. Bu baxımdan Vaşinqton görüşü gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından mühüm siyasi platformalardan biri kimi dəyərləndirilir.

### Zəngəzur dəhlizi (TRIPP) hər hansı bir dövlətə qarşı yönəlmiş layihə deyil...

Təbii olaraq, regionda bütün kommunikasiya xətlərinin açılması qarşılıqlı fayda prinsipi əsasında həyata keçirilməlidir. Rəsmi Bakının yanaşmasına görə, iqtisadi əməkdaşlığın genişlənməsi siyasi etimadın möhkəmlənməsinə də müsbət təsir göstərə bilər. Məhz buna görə Zəngəzur dəhlizi (TRIPP) hər hansı bir dövlətə qarşı yönəlmiş layihə deyil, əksinə, region ölkələrinin iqtisadi potensialının artırılmasına xidmət edən təşəbbüs kimi təqdim olunur.

Bəzən isə dəhliz ətrafında aparılan müzakirələrdə iqtisadi və nəqliyyat aspektləri ilə yanaşı, geosiyasi amillər də ön plana çıxarılır. Xüsusilə İran bu məsələ ilə bağlı müxtəlif vaxtlarda öz narahatlıqlarını ifadə edib. Bir müddət öncə İranın Zəngəzur dəhlizinə yönəlik mövqeyində müəyyən ştrixlər yer alıb. Belə ki, onlar Ermənistanın Sünik vilayətindən keçəcək istənilən marşrutun həmin ölkənin suverenliyi və yurisdiksiyası çərçivəsində fəaliyyət göstərməli olduğunu iddia edirlər. İran rəsmiləri regionda sərhədlərin dəyişdirilməsi ilə bağlı istənilən yanaşmanın qəbuledilməz olduğunu, həmçinin yeni nəqliyyat marşrutlarının ölkənin regional mövqeyinə və iqtisadi maraqlarına təsir göstərə biləcəyini vurğulayırlar. Hətta İranın Ermənistandakı səfiri Xəlil Şirgolami bildirib ki, "Ermənistan hakimiyyəti TRIPP layihəsinin (Zəngəzur dəhlizi) həyata keçirilməsinin İran üçün hər hansı təhlükə və ya çağırış yaratmayacağına dair təminat verib".

Səfirin sözlərinə görə, regionda ABŞ-ın mümkün iştirakından irəli gələn risklər və İranın təhlükəsizliyi ilə bağlı narahatlıqlar da nəzərə alınmalıdır.

Azərbaycan dəfələrlə bəyan edib ki, Zəngəzur istiqamətində kommunikasiyaların açılması layihəsinin əsas məqsədi iqtisadi əməkdaşlığın genişləndirilməsi və bölgədə nəqliyyat əlaqələrinin bərpasıdır. Rəsmi Bakı hesab edir ki, yeni marşrut region dövlətləri arasında ticarət dövriyyəsini artıracaq, tranzit imkanlarını genişləndirəcək və bütün iştirakçı tərəflər üçün əlavə iqtisadi dividendlər yaradacaq. Azərbaycanın mövqeyinə görə, kommunikasiyaların açılması heç bir ölkənin ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlməyib, əksinə, beynəlxalq hüquq normaları əsasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

Ekspertlər də hesab edirlər ki, bu cür iri regional layihələrin uğuru ilk növbədə tərəflər arasında etimadın formalaşmasından və iqtisadi maraqların siyasi mübahisələrdən üstün tutulmasından asılıdır. Qlobal təcrübə göstərir ki, beynəlxalq nəqliyyat dəhlizləri yalnız müxtəlif dövlətlərin ortaq maraqları uzlaşdırıldığı halda uzunmüddətli və səmərəli fəaliyyət göstərə bilir. Bu baxımdan Zəngəzur marşrutu ətrafında aparılan müzakirələrdə siyasi ritorikadan daha çox iqtisadi səmərəliliyin və regional əməkdaşlıq imkanlarının ön plana çıxarılması layihənin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır.



### Ermənistan üçün mühüm perspektiv...

Zəngəzur dəhlizi ilə bağlı müzakirələrdə Ermənistanın mövqeyi də əsas diqqətçəkən məsələlərdən biridir. Maraqlıdır ki, sanki Ermənistan bəzən anlaşılmaz fikirləri "təkrarlamaqla" nələrəsə nail olmaq istəyir. Azərbaycan isə öz növbəsində regionda bütün nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasının 2020-ci ildən sonra yaranmış yeni geosiyasi reallıqların mühüm tərkib hissəsi olduğunu bildirir. Rəsmi Bakı hesab edir ki, kommunikasiyaların açılması təkcə iki ölkə arasında əlaqələrin bərpasına deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi inkişafına və beynəlxalq tranzit imkanlarının genişlənməsinə xidmət edəcək. Azərbaycanın yanaşmasına görə, regionun uzunmüddətli sabitliyi iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və qarşılıqlı asılılığın artırılması ilə daha möhkəm təmin oluna bilər.

Siyasi ekspertlərin fikrincə, Zəngəzur dəhlizinin (TRIPP) açılması təkcə Azərbaycan və Ermənistan üçün deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi inteqrasiyası, regional sabitliyi və Avrasiya nəqliyyat sisteminə daha sıx inteqrasiyası baxımından mühüm perspektiv kimi qiymətləndirilir.

### İqtisadi dividend, siyasi sabitlik amili...

Qeyd olunmalıdır ki, Azərbaycan bu layihəni ilk növbədə Naxçıvanla gedişgəlişin asanlaşdırılması, paralel olaraq sülh şəraitinə uyğun şəkildə əməkdaşlığın genişləndirilməsi, tranzit imkanlarının artırılması və regionun beynəlxalq logistika şəbəkəsində rolunun gücləndirilməsi baxımından strateji əhəmiyyətli hesab edir. Layihə ətrafında müxtəlif dövlətlərin fərqli yanaşmalarının mövcudluğu, məsələyə fərqli geosiyasi rənglərin qatılması istəyi isə səslənən qlobal predmetlərlə uyğun gəlmir - Bakı hər zaman bölgədə sabitlik və təhlükəsizlik üçün maksimum imkanlar formalaşdırır. Kommunikasiyaların bərpası Avrasiya məkanında ticarət əlaqələrinin daha da genişlənməsinə töhfə verə bilər. Bu baxımdan Zəngəzur dəhlizi Cənubi Qafqazın uzunmüddətli inkişaf strategiyası olmaqla yanaşı, kontingentlərarası münasibətlər sisteminin formalaşmasına da əsaslı imkan deməkdir.

**P. İSMAYILOV**



# Bakıdan Avropaya uzanan strateji xətt

## Azərbaycan Avrasiyanın yeni enerji və təhlükəsizlik atlasında əsas həlqə kimi

Qlobal münasibətlər sisteminin qeyri-sabit mənzərəsi xüsusilə Avrasiyanın həm siyasi, həm də iqtisadi həyatına bir sıra yeni ştrixlər əlavə edib. Yaxın və Orta Şərqdə uzun illərdir davam edən kataklizmlər, qeyri-müəyyənliklər məcrasında dərinləşən ABŞ-İran müharibəsi, 4 ildən artıqdır ki, Avropanı fərqli standartlarla üz-üzə qoymuş Rusiya-Ukrayna münaqişəsi transkontinental həyatın məcrasına sərt təsirlər göstərməkdədir. Bütün bunların fonunda istər siyasi davranış kodeksləri (dialoq, siyasi əməkdaşlıq və siyasi  anlaşma), istərsə də iqtisadi transformasiyalar (enerji təchizatı, daşımacılıq, qütblərarası ticari imkanların genişləndirilməsi) yeni mərhələyə qədəm qoyub. Bütün bu komponentlər son 10 ildə yeni siyasi-iqtisadi nizamın formalaşmasını zəruri edib.

**Avropa dərk edir ki, əvvəlki onilliklərdən fərqli olaraq bu gün siyasi təzyiq mexanizmləri ilə qlobal proseslərə təsir etmək imkanlarını tam itirib. Bu mənada, yeni nizamın şərtlərinə uyğun olaraq orta güc dövlətlərin (xüsusilə də Azərbaycanın) Avrasiyada bağlantı rolunu dərk edir, Bakı ilə münasibətlərin bərabərhüquqlu tərəfdaş qismində inkişafında maraqlı olduğunu söyləyir**

Yeni iqtisadi-siyasi nizamın aparıcı sabitləşdirici rolunda isə Avrasiyanın orta güc dövlətlərindən sayılan Azərbaycan çıxış etməkdədir. Vətən müharibəsinin ardından yerləşdiyi geostrateji coğrafiyada yeni təhlükəsizlik arxitekturası formalaşdıran Bakı artıq Avropanın əsas yol və enerji ümidi kimi təqdim olunur. Bunu Avropa kontingenti özü də etiraf edir...

**Avropa Azərbaycanın orta güc statusunu təsdiqləyir və dəstəkləyir...**

Vurğulandığı kimi, Azərbaycan yeni dövrün təhlükəsizlik qarantı kimi Şərq-Qərb kontingentlərarası ticari münasibətlərin əsas həlqəsinə çevrilib. Orta dəhlizin imkanlarını daha da genişləndirən, müasir daşımacılığın inkişafı baxımından mühüm infrastrukturlar formalaşdıran, rəqəmsal daşımacılıq imkanlarını təqdim edən, Orta Dəhlizin diversifikasiyası baxımından mühüm addım olan Zəngəzur dəhlizi ideyasını qlobal gündəliyə təqdim edən Bakı yeni dövrdə Avrasiya üçün ticari imkanları genişləndirir. Yuxarıda qeyd etdiyimiz qeyri-stabil mənzərədə Azərbaycanın yaratdığı bu siyasi-iqtisadi tablo olduqca əsaslı bir hal kimi qeydə alınır. Belə ki, yeni iqtisadi atlasda Çindən başlanan Şərq-Qərb trayektoriyası Mərkəzi Asiya üzərindən Azərbaycana, oradan Gürcüstan və ya Ermənistan vasitəsilə Türkiyəyə, oradan isə Avropaya uzanır. Bu xətt daha çox Avropa üçün "nəfəslik" sayılır. Bunun əsas səbəblərinə gəldikdə isə bu gün "köhnə qitə" özünün son 15 ildə itirilən iqtisadi gücünü toparlamaq üçün Şərqlə ticarət imkanlarını genişləndirmək niyyətini açıq şəkildə bildirir. Avropa dərk edir ki, əvvəlki onilliklərdən fərqli olaraq bu gün siyasi təzyiq mexanizmləri ilə qlobal proseslərə təsir etmək imkanlarını tam itirib. Bu mənada, yeni nizamın şərtlərinə uyğun olaraq orta güc dövlətlərin (xüsusilə də Azərbaycanın) Avrasiyada bağlantı rolunu dərk edir, Bakı ilə münasibətlərin bərabərhüquqlu tərəfdaş qismində inkişafında maraqlı olduğunu söyləyir. Bu ilin martında Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Bakıya səfəri çərçivəsində qəbul edilmiş Birgə Bəyanatda da göstərilir ki, prezidentlər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir. Bu, birmənalı şəkildə Bakının orta güc statusu ilə Avrasiyanın mərkəzindəki mühüm rolunun etirafı və təsdiqidir...

**Brüssel çağırış edir: Azərbaycan Avropa İttifaqının əsas tərəfdaşıdır...**

Sirr deyil ki, əvvəlki Avropa Komissiyası ölkəmizə qarşı ikili standartlarla çıxış edib. Siyasi təzyiqlər, Vətən müharibəsinin nəticələrinin ədalətsiz və qərəzli təşviqi cəhdləri, eləcə də separatizmə dəstək anlamına gələn bir sıra addımların atılması məqsədsiz konyukturanın çirkin fəaliyyətinin nəticəsi sayılırdı. Amma bu gün mənzərə dəyişib - artıq Avropa Azərbaycanın bölgədəki rolunu yüksək dəyərləndirir.

- Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Bakıya səfəri zamanı bəyan etdi ki, Azərbaycan Respublikası Avropa İttifaqının əsas tərəfdaşıdır. O qeyd etdi ki, daşımalar bizim əməkdaşlığımızın mühüm sahəsidir: "Orta Dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir. Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Qlobal sabitsizlik fonunda aramızdakı əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir. Avropa İttifaqı bu günün çağırışlarını sabahın fürsətlərinə çevirmək üçün Azərbaycanla işləməyə sadiqdir. Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik".

İyulun 1-də Bakıya gələn Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen isə bildirdi ki, "bu gün mən Avropa İttifaqı üçün olduqca əhəmiyyətli tərəfdaşlığı dərinləşdirmək məqsədilə buradayam". Sitat: "Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir. Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik".

Bəli, bu siyasi tezislər Azərbaycanın Avrasiyanın bağlantı mərkəzi kimi ön plana çıxmasının mühüm təsdiqidir. Avropa Şərq ilə münasibətlərini məhz Azərbaycanın coğrafi, iqtisadi və infrastruktur imkanları üzərindən yenidən formalaşdırmağa çalışır.

**Enerji xətti: "Köhnə qitə"nin yeni tərəfdaşı...**

Bakı-Brüssel münasibətlərində əsas xətt kimi keçən məqamlardan biri də enerji təminatı məsələsidir. Qeyd olunmalıdır ki, "köhnə qitə"nin enerji təminatı uzun illər, onilliklər etibarı ilə Rusiya tərəfindən təchiz olunurdu. Rusiya-Ukrayna müharibəsi başlanan dövrdə isə Avropa Rusiya qazından imtina etdi - əvəzində isə ABŞ-ın keçmiş Bayden adminstrasiyasının enerji təminatı ilə bağlı illüziyalarına aldanaraq alternativ mənbələr axtarışına çıxmadı. Amma bu gün Baydenin "köhnə qitə"nin "başının altına qoyduğu yastıq" artıq öz effektini verə bilmir. Avropa yeni enerji mənbələri axtarışına çıxdığını elan edir. Bu mənada isə ən əsas tərəfdaş qismində Azərbaycan çıxış edə bilər. Geosiyasi reallıqlar fonunda Avropa İttifaqı məkanında enerji daşıyıcılarına tələbatın artması Cənub Qaz Dəhlizi layihəsinin əsas moderatoru qismində çıxış edən Azərbaycanın strateji baxışlarının uzaq məqsədlərə hesablandığını bütün cəhətləri ilə təsdiqləyir. 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması isə bu prosesdə xüsusi yerə malikdir. Avropa bazarında Azərbaycan qazına ehtiyac ildən-ilə daha da çoxalır - bu isə yeni idxalçı ölkələrin ortaya çıxmasını şərtləndirir. Digər tərəfdən, paralel olaraq Azərbaycanın ixrac potensialı da artmaqdadır. Ölkənin hədəfi  2030-cu ilə qədər qaz hasilatını daha 8 milyard kubmetr artırmaqdır - hazırda ixrac 25 milyard kubmetr təşkil edirsə, o zaman üçün təqribən 33 milyard kubmetr təşkil edəcək. Qarşıdakı dövrdə isə Avropanın Azərbaycandan enerji idxalı imkanları daha da genişlənə bilər. Prezident İlham Əliyev iyulun 21-də Berlində təşkil olunan mətbuat konfransında bildirib ki, bizim keçən il ümumi qaz ixracımız 25 milyard kubmetr olub. Onun yarısı Avropa İttifaqı ölkələrinə ixrac edilib: "Bildiyimə görə, Almaniya şirkətləri ilə 10 illik kontrakt imzalanmışdır və ilkin həcm 1,5 milyard kubmetrdir. Ancaq bu, təbii ki, arta bilər. Bunun üçün bir neçə məsələ öz həllini tapmalıdır". Dövlət başçısı qeyd edib ki, Azərbaycan Avropa məkanına, o cümlədən Almaniyaya öz qaz ixracını böyük dərəcədə artıra bilər.

Enerji sahəsində əlaqələrin möhkəmləndirilməsi Avropa İttifaqı üçün də prioritetdir. Yuxarıda bəhs açdığımız Antonio Koştanın Bakı səfəri zamanı imzalanan Birgə Bəyanatda da bu məqam açıq şəkildə vurğulanır: "Prezidentlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Onlar Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şurasının əhəmiyyətini, külək və Günəş enerjisi də daxil olmaqla, bərpaolunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialını, həmçinin Qara dəniz sualtı kabeli layihəsi kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüslərini qeyd ediblər".

**Bu yanaşmanın əsasında Azərbaycanın etibarlı enerji təchizatçısı, sabit tranzit ölkəsi və konstruktiv siyasi tərəfdaş kimi qazandığı nüfuz dayanır. Məhz bu amillər Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində, ticarət əlaqələrinin şaxələndirilməsində və yeni iqtisadi marşrutların formalaşdırılmasında Bakının əvəzolunmaz rolunu ön plana çıxarır**

AK Prezidentinin Bakı səfəri zamanı da enerji dialoqunun genişləndirilməsi məsələsi gündəmin əsas mövzularından biri kimi çıxış edib. Ursula Fon der Lyayen bildirib ki, "enerji tərəfdaşlığımızın ən güclü pillələrindən biri kimi qalmağa davam edir. Son illərdə Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı olduğunu sübuta yetirmişdir. Biz Rusiyanın enerjini silah kimi istifadə etdiyi və qazı kəsdiyi zaman Azərbaycanın irəliyə çıxdığını unutmamışıq. Cənub Qaz Dəhlizi həqiqətən Avropanın enerji təhlükəsizliyini gücləndirib və bu, heyrətamiz uğur hekayəsidir. Mən buna görə Sizə təşəkkürümü ifadə etmək istəyirəm. İndi biz növbəti səhifəni hazırlayırıq. Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır. Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır. Beləliklə biz bərpaolunan enerji mənbələri, elektrik enerjisinin qarşılıqlı nəqli və regional enerji şəbəkələri kimi sahələrdə əməkdaşlığımızı dərinləşdirmək üçün nəhəng potensialı görürük. Azərbaycanı Avropa İttifaqı ilə birləşdirən "Yaşıl Enerji Dəhlizi"ni qurmaq üçün planlarınızı alqışlayırıq".

Göründüyü kimi, Azərbaycanın həm yaşıl enerji strategiyası, həm də qaz ixracı ilə bağlı hədəfləri Avropanın gündəminin aparıcı mövzularıdır. Bakı yalnız "yol siyasəti" üzərindən deyil, həm də enerji siyasəti üzərindən Avrasiyanın ən aparıcı aktorlarından birinə çevrilib.

**Uzunmüddətli inkişaf strategiyasının və çoxşaxəli xarici siyasət kursunun uğuru**

Beləliklə, qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi, enerji təhlükəsizliyi və nəqliyyat marşrutlarının dövlətlərin strateji gündəliyində əsas yer tutduğu bir dövrdə Azərbaycanın rolu getdikcə daha aydın görünür. Bakı artıq təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiyanın siyasi, iqtisadi və logistik arxitekturasının mühüm dayaqlarından birinə çevrilib. Bu günün Avropası üçün Şərqlə Qərbi birləşdirən Orta Dəhlizin inkişafı, Zəngəzur dəhlizi təşəbbüsü, Cənub Qaz Dəhlizinin genişlənməsi, eləcə də yaşıl enerji layihələri Azərbaycanın uzunmüddətli strateji baxışının nəticəsi kimi çıxış edir. "Qoca qitə" artıq Azərbaycanı qitələrarası əməkdaşlığın əsas tərəfdaşlarından biri kimi qəbul edir. Yuxarıda da qeyd olunduğu kimi, bu yanaşmanın əsasında Azərbaycanın etibarlı enerji təchizatçısı, sabit tranzit ölkəsi və konstruktiv siyasi tərəfdaş kimi qazandığı nüfuz dayanır. Məhz bu amillər Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində, ticarət əlaqələrinin şaxələndirilməsində və yeni iqtisadi marşrutların formalaşdırılmasında Bakının əvəzolunmaz rolunu ön plana çıxarır.

Beləliklə, Azərbaycan dəyişən beynəlxalq münasibətlər sistemində yalnız yaranan imkanlardan istifadə edən deyil, həm də yeni geosiyasi və geoiqtisadi reallıqları formalaşdıran aktorlardan biridir. Enerji diplomatiyası, nəqliyyat bağlantıları və regional sabitliyə verdiyi töhfə Bakını Avrasiyanın yeni enerji və təhlükəsizlik atlasında əsas həlqəyə çevirir. Bu reallıq Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirməklə yanaşı, ölkənin uzunmüddətli inkişaf strategiyasının və çoxşaxəli xarici siyasət kursunun uğurunu da təsdiqləyir.

*Pərviz SADAYOĞLU*

# Azərbaycan-Çin: strateji tərəfdaşlığın gücləndirilməsində partiya diplomatiyasının rolu





## YAP-ÇKP əməkdaşlığı dövlətlərarası münasibətlərin inkişafına mühüm töhfələr verir

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında münasibətlər son illərdə qarşılıqlı etimad, strateji tərəfdaşlıq və uzunmüddətli əməkdaşlıq prinsipləri əsasında dinamik şəkildə inkişaf edir. Bu münasibətlərin mühüm istiqamətlərindən biri də hər iki ölkənin iqtidar partiyaları arasında formalaşmış konstruktiv dialoq və qarşılıqlı əməkdaşlıqdır. Siyasi partiyalararası əlaqələr dövlətlərarası münasibətlərin möhkəmlənməsinə, qarşılıqlı etimadın dərinləşməsinə və müxtəlif



sahələrdə əməkdaşlığın genişlənməsinə əlavə impuls verir. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında həyata keçirilən müntəzəm görüşlər, təcrübə mübadiləsi, birgə tədbirlər və qarşılıqlı səfərlər siyasi dialoqun institusional əsaslarını gücləndirir. Bu əməkdaşlıq yalnız siyasi müstəvidə deyil, iqtisadi, humanitar, elmi, təhsil və mədəni sahələrdə də yeni imkanların yaranmasına şərait yaradır. Eyni zamanda, partiyalararası münasibətlər xalqlar arasında qarşılıqlı anlaşmanın, dostluq və etimad mühitinin möhkəmlənməsinə, cəmiyyətlərarası əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

Qeyd edilməlidir ki, bu amil istər 2024-cü ilin iyulunda iki ölkə arasında imzalanan strateji tərəfdaşlıqla bağlı Birgə Bəyannamədə, istərsə də 2025-ci ilin aprelində imzalanan Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatda öz əksini tapıb. Belə ki, 2024-cü ildə imzalanan Birgə Bəyannamədə iki ölkənin siyasi və ictimai strukturlarının arasında mübadilə və əməkdaşlığın qarşılıqlı münasibətlərin inkişafına və daha da dərinləşməsinə töhfə verdiyi də vurğulanır. Tərəflər Azərbaycanın hakim siyasi partiyası ilə Çin Kommunist Partiyası arasında mübadilə və əməkdaşlığın möhkəmlənməsini dəstəkləyirlər. Bundan başqa, tərəflər əlaqələrin genişləndirilməsində və inkişafında qanunverici orqanlar səviyyəsində əməkdaşlığın mühüm rolunu qeyd edirlər. Bu kontekstdə iki ölkənin qanunverici orqanları arasında müxtəlif sahələrdə və müxtəlif səviyyələrdə, o cümlədən müvafiq beynəlxalq və regional təşkilatlar çərçivəsində mübadilə və əməkdaşlığın fəallaşmasının vacibliyi də sənəddə öz əksini tapır.

2025-ci ildə imzalanan hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatda vurğulanır ki, Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında siyasi dialoqun möhkəmləndirilməsi dəstəklənir.



Bildirildiyi kimi, Çin ilə Azərbaycan arasında ictimai həyatın ən müxtəlif sahələri üzrə əməkdaşlıq yüksək səviyyədədir - iki ölkənin aparıcı siyasi gücü sayılan iqtidar partiyaları arasında çoxşaxəli əlaqələr mühüm inkişaf tempinə malikdir. Qarşılıqlı səfərlər, təşkil olunan beynəlxalq səviyyəli partiyalararası konfrans və tədbirlər, partiyaların ayrı-ayrı strukturlarının əlaqələndirilməsi yönündə atılan addımlar müsbət nəticələr verir. Xüsusilə, son bir neçə ildə bu əlaqələrin daha da güclənməsi diqqəti cəlb edir.

Yüksək səviyyəli əlaqələr fonunda hakim partiyalar tərəfindən qarşılıqlı səfərlərin təşkil olunması və təcrübə mübadilələrinin aparılması münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıyır. Xatırladaq ki, hər iki ölkənin iqtidar partiyasının rəsmi şəxsləri mütəmadi olaraq qarşılıqlı səfərlər edir, partiyalararası münasibətlərin inkişafını, intqerasiyanı daha da gücləndirirlər.

## Qarşılıqlı əlaqələr rəsmi əməkdaşlıq səviyyəsinə çatdırılıb...

Müsbətyönümlü əlaqələrin inkişafı hüquqi müstəvidə də rəsmiləşib - belə ki, 2024-cü ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri zamanı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Bu sənəd qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirərək partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edib.

Partiyalararası münasibətlərin inkişafı, qarşılıqlı səfərlər, eləcə də təcrübə mübadilələri uğurlu siyasi müzakirələrə yol açır. Bunun nəticəsidir ki, strateji birliyi özündə ehtiva edən sənədlərdən irəli gələn vəzifələr mütəmadi olaraq görüşlərin əsas mövzusu kimi diqqət mərkəzində olur. Təsadüfi deyil ki, bu ilin mayında Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində hakim partiyalar arasındakı münasibətlərin inkişafı növbəti dəfə müzakirə predmeti olub. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysin ilə görüşdə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənərək hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin hər iki ölkənin maraqlarına cavab verdiyi vurğulanıb. Görüşdə nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmi vurğulanıb, məqsədyönlü birgə fəaliyyətin ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə və müştərək maraqların təmininə xidmət etdiyi bildirilib. Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub.

Bir neçə gün öncə, iyulun 23-də isə Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizə səfərin yekunları ilə bağlı Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığını qeyd edib. O, 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin indiyədək müvəffəqiyyətlə yerinə yetirildiyini vurğulayıb. Tahir Budaqov gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunaraq bu sahədə səmərəli əməkdaşlığın davam etdirilməsinin vacibliyini bildirib. O, partiya diplomatiyasının bundan sonra da ortaq hədəflərin gerçəkləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

## Münasibətlərin inkişafı yaxşı perspektivlər vəd edir...

Göründüyü kimi, iqtidar partiyalarının qarşılıqlı əməkdaşlığı ikitərəfli münasibətlərin inkişafında mühüm siyasi və institusional rol oynayır. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında qurulan davamlı dialoq, qarşılıqlı etimad və təcrübə mübadiləsi dövlətlərarası əlaqələrin daha da möhkəmlənməsinə əlverişli zəmin yaradır. Bu münasibətlər siyasi əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda iqtisadi, investisiya, nəqliyyat-logistika, elm, təhsil, mədəniyyət və humanitar sahələrdə yeni əməkdaşlıq istiqamətlərinin formalaşmasına da müsbət təsir göstərir. Partiyalararası münasibətlər müxtəlif səviyyələrdə həyata keçirilən görüşlər və birgə təşəbbüslər vasitəsilə cəmiyyətlər arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, xalqlar arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və uzunmüddətli tərəfdaşlığın sosial əsaslarının güclənməsinə xidmət edir. Xüsusilə, beynəlxalq münasibətlər sistemində qarşılıqlı hörmət, suverenlik və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanan əməkdaşlıq modeli hər iki ölkənin xarici siyasət prioritetləri ilə uzlaşır. Bu baxımdan, iqtidar partiyaları arasında mövcud olan müsbət dinamizm Azərbaycan-Çin strateji tərəfdaşlığının mühüm dayaqlarından biri kimi qiymətləndirilə bilər.

***P.İSMAYILOV***



# Milli Məclisdən ABŞ konqresmenlərinə etiraz

## Konqresmen Bred Şerman korrupsioner Robert Menendesin "siyasi xəttini" davam etdirir

ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsi iyulun 22-də Azərbaycana qarşı qərəzli qanun layihəsi qəbul edib. "Sənəd"də ermənipərəst konqresmenlər erməni əsilli cinayətkarları "hərbi əsirlər" hesab edir, ölkəmizdə "siyasi məhbus" olduğunu və s. iddia edirlər.

Dünən Milli Məclis ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin qəbul etdiyi bu qanun layihəsi dair açıqlama yayıb. Azərbaycan parlamenti ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin iyulun 22-də qəbul etdiyi H.R. 9087 saylı qanun layihəsi ilə əlaqədar kəskin etirazını bildirib və həmin sənəddə ölkəmizə qarşı irəli sürülən əsassız ittihamları qətiyyətlə rədd edib. Beynəlxalq hüquq normalarına və prinsiplərinə kobud etinasızlığın bariz nümunəsi olan bu təşəbbüs Birləşmiş Ştatların Konqresindən erməni lobbisinin maraqları naminə Azərbaycan əleyhinə siyasi təzyiq aləti kimi istifadə etmək üçün göstərilən növbəti cəhddir.

**Sənədin müəllifi kimdir?**

Qeyd edilib ki, qanun layihəsinin müəllifi, sabiq konqresmen Robert Menendesin siyasi xəttinin davamçısı, konqresmen Bred Şerman erməni lobbi qrupları ilə bağlı olan və ardıcıl surətdə onların siyasi gündəliyini həyata keçirməyə çalışan bir şəxs kimi tanınır. Aydın məsələdir ki, ABŞ Konqresinə növbəti seçkilər ərəfəsində irəli sürülən bu cür təşəbbüslər heç də Birləşmiş Ştatların milli maraqlarını təmin etmək niyyəti ilə bağlı deyil və nüfuzlu lobbi dairələrinin siyasi və maliyyə dəstəyini qazanmaq məqsədi güdür. Qəbul olunan qərarların obyektivliyini şübhə altına alan bu cür praktika Birləşmiş Ştatların hüquq-mühafizə orqanları tərəfindən ciddi surətdə araşdırılmalı və lazımi hüquqi qiymətini almalıdır. Sözügedən təşəbbüsün erməni lobbisinin Azərbaycanı gözdən salmaq üçün çoxdan bəri həyata keçirdiyi kampaniya çərçivəsində irəli sürüldüyü aşkardır. Eynilə belə bir çirkin missiyanı Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampo yerinə yetirir. Onun Rusiyanın erməni mənşəli oliqarxı Samvel Karapetyan da daxil olmaqla, erməni şovinist dairələri ilə bağlı şəxslərin maliyyə yardımı ilə siyasi motivli rəylər hazırladığı beynəlxalq ictimaiyyətə məlumdur. Eyni siyasi xətt Avropanın bir sıra parlament qurumlarının, o cümlədən Avropa Şurası Parlament Assambleyasının fəaliyyətində də görünür. Bu qurumun ayrı-ayrı deputatları, xüsusən Frank Şvabe kimi şəxslər uzun müddətdən bəri Azərbaycan barəsində qeyri-obyektiv və qərəzli təşəbbüslərlə çıxış edirlər. Bütün bu hərəkətlər erməni lobbisinin müxtəlif beynəlxalq parlament platformalarında həyata keçirdiyi dəqiq əlaqələndirilmiş kampaniyanın tərkib hissələridir.

**Konqresmenlər Donald Trampın vasitəçilik təşəbbüsünə qarşı...**

Bildirilib ki, narahatlıq doğuran hal budur ki, bu cür addımlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin ardıcıl surətdə irəli aparıldığı bir dövrdə atılır. Möhkəm və uzunmüddətli sülhün bərqərar edilməsinə yönələn beynəlxalq səylər, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçilik təşəbbüsü və birbaşa dəstəyi iki dövlət arasında münasibətlərin nizama salınması üçün real imkanlar açıb. Belə bir şəraitdə ayrı-ayrı konqresmenlərin siyasi motivli birtərəfli qərarları qəbul etdirmək cəhdləri nəinki etimad mühitini pozur, həm də sülh prosesinə əngəl törədir. Bu cür hərəkətlər yalnız erməni lobbisinin radikal şovinist dairələrinin maraqlarına xidmət edir. Onilliklər ərzində bu dairələr Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına mane olub və qarşıdurmanı qoruyub saxlamağa çalışıblar, indi isə regional gərginlikdən öz siyasi və maliyyə hədəflərinə nail olmaq üçün istifadə edirlər.

**Erməni maliyyəsinin "əsirləri"...**

Diqqətə çatdırılıb ki, qanun layihəsində Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər barəsində "hərbi əsirlər" və "siyasi məhbuslar" kimi terminlərin işlədilməsi xüsusilə hiddət doğurur. Bu şəxslər hərbi əsirlər və ya siyasi məhbuslar deyil. Onlar Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq normaları ilə nəzərdə tutulan hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və digər cinayətlər törətdiklərinə görə cinayət məsuliyyətinə cəlb ediliblər. Onları siyasi təqibin qurbanları kimi qələmə vermək cəhdləri faktların bilərəkdən təhrif edilməsidir və müstəqil dövlət tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsinə birbaşa müdaxilədir.

Azərbaycan Respublikasının Milli Məclisi Amerika Birləşmiş Ştatlarının konqresmenlərini mütəşəkkil erməni lobbi qruplarının təsiri altında qərarlar qəbul etmək praktikasından əl çəkməyə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının suverenliyinə hörmət göstərməyə, eləcə də Cənubi Qafqazda sülh prosesinin pozulmasına və qarşıdurmanın qalmasında marağı olan qüvvələrin əlində alətə çevrilməməyə çağırıb.

*Nardar BAYRAMLI*

# Mina terroru davam edir...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.

**Bu dəfə Cəbrayıl rayonunda...**

Belə ki, iyulun 23-də işğaldan azad edilmiş Cəbrayıl rayonunun Həsənli kəndi ərazisində mina partlayışı hadisəsi baş verib. Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri bu barədə məlumat yayıb. Bildirilib ki, 1979-cu il təvəllüdlü Cəbrayıl rayonu Qumlaq kənd sakini Şəmilov Elşən Bəhlul oğlu minalardan təmizlənməmiş ərazidə traktorla yer şumlayarkən mina partlayışı nəticəsində xəsarət alıb.

Faktla bağlı Cəbrayıl Rayon Prokurorluğunda araşdırma aparılır. ANAMA, DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa, şübhəli əşyalara toxunmamağa, bələd olmadıqları ərazilərə daxil olmamağa, çəpərləmə fəaliyyəti aparılan ərazilərə müdaxilə etməməyə çağırıb.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra yüzlərlə Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanına çevrilib. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm öhdəlik olaraq qalmaq-



dadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.

**Problem qayıdış prosesinə əngəl yaradır**

Digər tərəfdən, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir.

Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana dəqiq xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda da basdırmasının məqsədi mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

**Nə qədər ərazi minalardan təmizlənib?**

Qeyd edək ki, iyulun 17-də ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov mətbuat konfransında minatəmizləmə işləri barədə məlumat verib. V.Süleymanov deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış Proqramının əsas prioritetlərindən biri humanitar minatəmizləmə fəaliyyətidir. Onun sözlərinə görə, ANAMA-nın fəaliyyəti nəticəsində hər gün yeni ərazilər mina təhlükəsindən təmizlənərək yaşayış, infrastruktur və kənd təsərrüfatı məqsədləri üçün təhlükəsiz istifadəyə verilir: "Bir zamanlar hər addımı təhlükəli olan torpaqlarda bu gün həyat yenidən canlanır, kəndlər, şəhərlər salınır, irimiqyaslı layihələr icra edilir. İşğaldan azad edilmiş ərazilərdə bu istiqamətdə aparılan minatəmizləmə əməliyyatları nəticəsində 287 min 385 hektar təmizlənib, 255 min 200 (189 min 097 ədəd digər partlayıcı sursat, 42 min 235 ədəd piyadaəleyhinə mina, 23 min 868 ədəd tankəleyhinə mina) mina və digər partlayıcı sursatlar aşkar edilərək zərərsizləşdirilib".

V.Süleymanov qeyd edib ki, ANAMA müasir texnologiyalar, innovativ metodologiyalar, mexaniki minatəmizləmə vasitələri, minaaxtaran itlər və yüksəkixtisaslı mütəxəssislərin iştirakı ilə genişmiqyaslı əməliyyatlar həyata keçirir. Onun sözlərinə görə, Azərbaycanın humanitar minatəmizləmə təcrübəsi beynəlxalq səviyyədə maraqla öyrənilən və nümunə göstərilən fəaliyyət istiqamətlərindən biridir: "Ən müasir texnologiyalar və mexaniki vasitələrdən istifadə olunsa da, humanitar minatəmizləmənin əsas hərəkətverici qüvvəsi insan əməyidir. Minaaxtaranların peşəkarlığı, dəqiqliyi və məsuliyyəti hər bir əməliyyatın uğurunu təmin edən əsas amildir. Agentliyin əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinin aradan qaldırılması, insanların təhlükəsiz qayıdışının təmin olunması və ölkəmizin davamlı inkişafına töhfə verməkdir".

Bundan əlavə, ANAMA-nın rəhbəri minatəmizləmə işlərində yeni avadanlıqların tətbiqi və süni intellektin bu sahədə istifadəsi ilə bağlı araşdırmalar apardığını da diqqətə çatdırıb. O qeyd edib ki, agentlik yeniliklərə açıqdır: "Lakin bunlar hələlik innovasiya və tədqiqat mərhələsindədir. Minatəmizləmə prosesinə gəldikdə isə, dünyanın əksər ölkələrində olduğu kimi, hazırda ənənəvi üsullardan istifadə olunur. Ümid edirik ki, gələcəkdə yeni innovasiyalar minatəmizləmə sahəsinə də ciddi təsir göstərəcək. Ancaq hələ ki, dünyanın heç bir yerində bu istiqamətdə köklü texnoloji sıçrayış baş verməyib".

**Beynəlxalq birlik biganə qalmamalıdır!**

Ölkəmiz beynəlxalq ictimaiyyəti mütəmadi olaraq Ermənistanın mina terroru barədə məlumatlandırır, müxtəlif platformalar çərçivəsində bu yöndə tədbirlər keçirir. Məqsəd beynəlxalq birliyin diqqətini problemin həllinə yönəltməkdir. Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Bütün bunlarla yanaşı, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

Yeri gəlmişkən, ANAMA Azərbaycanın mina problemi sahəsində gördüyü işlər ilə bağlı cari ilin sentyabrında beynəlxalq konfrans keçirməyi planlaşdırır. Həmin tədbir mina probleminin dünya ictimaiyyətinə bir daha çatdırılması istiqamətində növbəti imkan olacaq.

*Nardar BAYRAMLI*

# Azərbaycanın növbəti humanist təşəbbüsü..

## UNESCO-da İnkişaf etməkdə olan Kiçik Ada Dövlətlərinə dəstək məqsədli yeni proqram təqdim olunub

Bir neçə gündür ki, UNESCO-nun Dünya İrs Komitəsinin 48-ci sessiyası Cənubi Koreyanın Busan şəhərində davam edir. Sessiyada Dünya İrs Konvensiyasına qoşulmuş 195 dövlətdən seçilən 21 üzv ölkənin nümayəndələri, eləcə də İrs Komitəsinin üzvü olan Azərbaycan nümayəndə heyəti iştirak edir. Dünya İrs Komitəsi UNESCO-nun mədəni və təbii irsin qorunmasına dair 1972-ci il Konvensiyasının əsas idarəetmə orqanlarından biridir. Komitə hər il toplanaraq, Dünya İrs Siyahısına daxil edilməsi təklif olunan yeni obyektləri qiymətləndirir, həmçinin artıq siyahıya salınmış abidələrin və ərazilərin mühafizə vəziyyətini nəzərdən keçirir. Qərarlar UNESCO-nun məsləhətçi qurumlarının və Katibliyinin hazırladığı ekspert rəyləri əsasında qəbul edilir.

**UNESCO-nun irs siyahısında Azərbaycandan 24 nümunə yer alır**

2026-cı il sessiyasında dünyanın müxtəlif bölgələrindən təqdim olunmuş yeni namizədlərin Dünya İrs Siyahısına daxil edilməsi, təhlükə altında olan irs obyektlərinin vəziyyəti və onların qorunması üçün görüləcək tədbirlər əsas müzakirə mövzularıdır. Komitənin gündəliyində həm mədəni, həm də təbii irs nümunələrinin qiymətləndirilməsi yer alır. UNESCO-nun son məlumatlarına görə, hazırda Dünya İrs Siyahısına 170-dən çox ölkədə yerləşən 1200-dən artıq mədəni, təbii və qarışıq irs obyekti daxildir. UNESCO-nun irs siyahısına Azərbaycandan 24 nümunə yer alır. Hər yeni sessiyada bu siyahının genişlənməsi ilə yanaşı, iqlim dəyişikliyi, silahlı münaqişələr, urbanizasiya və kütləvi turizmin irs obyektlərinə təsiri də xüsusi diqqət mərkəzində saxlanılır.

Busandakı toplantının sonunda Komitənin yeni Dünya İrs obyektləri ilə bağlı qərarları və qoruma tədbirlərinə dair yekun qətnamələrinin açıqlanması gözlənilir.

Qeyd edək ki, ölkəmiz Dünya İrs Komitəsinin 48-ci sessiyasında Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyi, Azərbaycanın UNESCO üzrə Milli Komissiyası, Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyinin nümayəndələrindən ibarət heyətlə təmsil olunur. Azərbaycan UNESCO-nun Dünya İrs Komitəsinin Cənubi Koreyanın Busan şəhərində keçirilən 48-ci sessiyasında mədəni və təbii irsin qorunması sahəsindəki fəaliyyətini bir daha ifadə edib. Sessiyanın ümumi müzakirələri zamanı Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev ölkəmizin milli bəyanatını təqdim edib. Daimi nümayəndə UNESCO-nun Dünya İrs Komitəsinin 48-ci sessiyasında ölkəmizin mədəni irsin qorunması sahəsində həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

**"Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyası...**

Bəyanatda bildirilib ki, yaxın zamanda qəbul edilmiş "Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyası mədəni irsin idarə olunması sisteminin təkmilləşdirilməsi, irs obyektlərinin sənədləşdirilməsi, onların hüquqi müdafiəsinin gücləndirilməsi və tarixi abidələrin bərpası istiqamətində uzunmüddətli strateji çərçivə yaradır. Çıxışda həmçinin mina təhlükəsinin davam etdiyi ərazilərdə mövcud çətinliklərə baxmayaraq, mədəni irs obyektlərinin inventarlaşdırılması və sənədləşdirilməsi işlərinin davam etdirildiyi qeyd olunub. Azərbaycanın daimi nümayəndəsi vurğulayıb ki, mədəni irsin qorunması istiqamətində görülən işlərin nəticələrindən biri kimi "Xınalıq xalqının mədəni landşaftı və Köç Yolu transhumans marşrutu" Dünya İrsi ərazisinin tərkib hissəsi olan Xınalıq kəndi 2025-ci ildə BMT Turizm Təşkilatı tərəfindən "Ən Yaxşı Turizm Kəndləri" siyahısına daxil edilib. Bu tanınma mədəni irsin qorunması ilə yerli icmaların və davamlı turizmin inkişafı arasındakı əlaqəni nümayiş etdirir.

Bəyanatda 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edildiyi də diqqətə çatdırılıb. Bildirilib ki, Bakıda keçirilən XIII Ümumdünya Şəhərsalma Forumunda təqdim olunan SECURE (Sustainable and Empowering Cultural Revitalization) təşəbbüsü mədəni irsin qorunması, dayanıqlı inkişaf və bərpa proseslərinə mühüm töhfə verə bilər. Qeyd olunub ki, Dünya İrs Komitəsinin 48-ci sessiyası çərçivəsində iyulun 23-də SECURE təşəbbüsünə həsr olunmuş xüsusi tədbir keçiriləcək. Elman Abdullayev ölkəmizin Afrika dövlətləri ilə əməkdaşlığın genişləndirilməsinə sadiq olduğunu bildirib. O, Azərbaycanın Dünya İrsi üzrə Afrika Strategiyasının və Kiçik Ada İnkişaf etməkdə olan Dövlətlər (SIDS) üzrə Dünya İrs Strategiyasının həyata keçirilməsinə dəstək verəcəyini açıqlayıb.

Çıxışda, həmçinin Azərbaycanın hazırladığı "Azərbaycan-SIDS Dünya İrsi Potensialının Gücləndirilməsi Proqramı" barədə məlumat təqdim olunub. Bildirilib ki, proqramın məqsədi kiçik ada dövlətlərində dünya irsi sistemlərinin institusional imkanlarının artırmaq, ekspert hazırlığını dəstəkləmək və gələcək nominasiya proseslərinə yardım göstərməkdir.

**Yeni proqramın məqsədi nədir?**

Bundan əlavə, ayrıca tədbirdə Azərbaycanın İnkişaf etməkdə olan Kiçik Ada Dövlətlərinə (SIDS) dəstək məqsədi daşıyan yeni beynəlxalq proqramı təqdim olunub. Ümumdünya İrs Mərkəzinin təşkilatçılığı ilə keçirilən "SIDS ölkələrinin Ümumdünya İrsi Strategiyası" mövzusunda yüksəksəviyyəli tədbirdə Azərbaycanın "Kiçik Ada Dövlətləri (SIDS) üçün Ümumdünya İrsi Yolunda Bacarıqların Artırılmasına Azərbaycan Respublikasının Beynəlxalq Texniki Yardım Təşəbbüsü" elan edilib. Yeni təşəbbüs SIDS ölkələrinin institusional imkanlarının və peşəkar bacarıqlarının artırılmasına, kiçik ada dövlətlərinin nadir irs nümunələrinin UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilməsi sahələrində ekspert və texniki dəstəyin göstərilməsinə yönəlib.

Proqramın hazırlanması "Mədəniyyət və Təhsil üzrə Sertifikasiya İnstitutu" tərəfindən həyata keçirilir. Tədbirdə çıxış edən Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev bildirib ki, proqram UNESCO-nun bu istiqamətdə həyata keçirdiyi fəaliyyətə əlavə töhfə vermək məqsədi daşıyır. Təşəbbüs SIDS ölkələrinin konkret ehtiyacları nəzərə alınmaqla, xüsusilə iqlim dəyişikliyinin Ümumdünya İrsinin qorunması üçün yaratdığı çağırışlara cavab vermək məqsədilə praktiki potensialın gücləndirilməsinə yönəlmiş dəstək mexanizmlərini təmin edir. Vurğulanıb ki, proqram bu sahədə beynəlxalq təcrübəyə malik "Mədəniyyət və Təhsil üzrə Sertifikasiya İnstitutu" tərəfindən cəlb olunacaq peşəkar ekspertlərin iştirakı ilə icra ediləcək.

Çıxışının sonunda E.Abdullayev Azərbaycanın Dünya İrs Komitəsinin üzvü kimi bütün tərəfdaş dövlətlər, UNESCO-nun Dünya İrs Mərkəzi və məsləhətçi qurumlarla sıx əməkdaşlıq etməyə hazır olduğunu bildirib. O, Azərbaycanın Konvensiyanın məqsədlərinin həyata keçirilməsinə və daha balanslı, inklüziv və səmərəli dünya irsi sisteminin inkişafına töhfə vermək niyyətində olduğunu vurğulayıb.

Ümumdünya İrs Mərkəzinin direktoru Lazare Eloundou çıxışında proqramın əhəmiyyətini vurğulayaraq, Azərbaycanın SIDS ölkələrinə göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib. Tədbirdə, həmçinin bildirilib ki, Azərbaycanın irəli sürdüyü təşəbbüs beynəlxalq həmrəyliyin gücləndirilməsi, ümumdünya mədəni və təbii irsinin qorunması sahəsində təcrübə mübadiləsinin təşviqi, SIDS və digər həssas ölkələrin potensialının artırılması istiqamətində mühüm addımdır.

Qeyd edək ki, UNESCO-nun Dünya İrs Komitəsinin 48-ci sessiyası iyulun 29-dək davam edəcək.




*Nardar BAYRAMLI*

# Nəqliyyatda Məlumat Anbarı yaradılır: Nə dəyişəcək?

## Hədəf daha ağıllı, dayanıqlı və vətəndaşyönümlü nəqliyyat ekosisteminin formalaşmasına nail olmaqdır

Müasir dövrdə həyatın bütün sahələrinə daxil olan süni intellekt əhaliyə xidmət sektorunun mühüm seqmenti qismində çıxış edən nəqliyyat sektorunda fəaliyyətin optimallaşdırılması üçün geniş imkanlar açıb. Artıq yeni texnologiyaların tətbiqi ilə məlumatları bir bazada toplayaraq onları operativ şəkildə emal etmək və alınan nəticələrə uyğun marşrutların fəaliyyətinin səmərəliliyini artırmaq mümkündür.

Beləliklə, xidmət keyfiyyətini yüksəltməklə vətəndaş məmnunluğunu artırmaq üçün nəqliyyatda məlumatların bir bazada toplanaraq səmərəli idarəçiliyə keçid dönəmi başlayır. Hazırda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat əsaslı idarəetməni gücləndirmək üçün zəruri infrastruktur qurulmaqla Məlumat Anbarının (Data Warehouse - DWH) yaradılması istiqamətində işlər aparır.

**Məlumat Anbarı nədir?**

Məlumat Anbarı toplanan bütün nəqliyyat, sərnişin və hərəkət datalarını vahid mərkəzdə birləşdirən böyük verilənlər bazasıdır. Süni intellekt məhz bu bazadakı məlumatları emal edərək onlar üzərindən qərarlar qəbul edilməsinə imkan yaradır. Qurumdan verilən məlumata əsasən, yaxın və ortamüddətli perspektivdə AYNA süni intellekt əsaslı qərarvermə dəstəyi, vətəndaş müraciətlərinin ağıllı emalı, rəqəmsal köməkçilərin (AI Assistant) tətbiqi, "Big Data" analitikası vasitəsilə sərnişin və nəqliyyat axınlarının təhlili, proqnozlaşdırıcı analitika, risk əsaslı nəzarət mexanizmləri və proseslərin daha geniş avtomatlaşdırılması nəzərdə tutulur. "Məlumat Anbarı" layihəsi isə müxtəlif informasiya sistemlərində toplanan məlumatların vahid platformada birləşdirilməsini, standartlaşdırılmasını və təhlili üçün əlçatan olmasını təmin edəcək. DWH infrastrukturu "Big Data" analitikası üçün etibarlı baza rolunu oynayacaq. Platformada ictimai nəqliyyat, sərnişin axını, marşrutların fəaliyyəti, yol hərəkətinin intensivliyi və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumatlar vahid mühitdə emal ediləcək. Bu da böyük həcmli məlumatların təhlilinə, tendensiyaların müəyyənləşdirilməsinə və gələcək nəqliyyat tələbatının daha dəqiq proqnozlaşdırılmasına imkan verəcək", - deyə AYNA-nın məlumatında vurğulanır.

AYNA-dan əlavə edilib ki, Məlumat Anbarı həmçinin süni intellekt və proqnozlaşdırıcı analitika həllərinin tətbiqi üçün möhkəm zəmin yaradacaq: "Bunun nəticəsində nəqliyyat şəbəkəsinin planlaşdırılması, resursların idarə olunması, marşrutların optimallaşdırılması və xidmət keyfiyyətinin artırılması daha səmərəli olacaq, qərarlar isə məlumatlara əsaslanaraq daha operativ qəbul ediləcək. Uzunmüddətli perspektivdə isə DWH və "Big Data" texnologiyalarının tətbiqi AYNA-nın rəqəmsal transformasiya strategiyasının əsas istiqamətlərindən biri olaraq daha ağıllı, dayanıqlı və vətəndaşyönümlü nəqliyyat ekosisteminin formalaşmasına mühüm töhfə verəcək".

**Xidmətlərin müxtəlif rəqəmsal platformalar üzərindən təqdim olunması**

Ölkənin digər xidmət qurumlarında olduğu kimi, AYNA da son illərdə nəqliyyat sahəsində xidmətlərin rəqəmsal platformalar üzərindən təqdim olunmasını özünün əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Qurumdan bildirilib ki, bu məqsədlə sərnişinlər, sürücülər, daşıyıcılar və dövlət qurumları üçün xidmətlərin vahid rəqəmsal mühitdə təqdim olunmasını təmin edən müasir informasiya sistemləri yaradılıb. Bu ekosistemin əsasını AYNA İnformasiya Sistemi və onun altsistemləri təşkil edir. Bunlardan aşağıdakıları misal göstərmək mümkündür:

- Şəhər mobilliyinin idarə olunması üçün "Rəqəmsal Əkiz" (Digital Twin),
- "Taksi Rəqəmsal Əkiz",
- Şəhərlərarası sərnişin daşımaları üzrə Biletim.az,
- Parklanmanın idarə olunması üçün "AzParking",
- İctimai nəqliyyatda QR-kod və NFC əsaslı nağdsız ödəniş sistemi,
- Eləcə də vahid mobillik platforması olan "AYNA MaaS" (Mobility as a Service).



Təbii ki, qeyd olunan rəqəmsal platformalar son deyil və bu istiqamətdə işlər davam etdirilir. O cümlədən AYNA İnformasiya Sistemi vasitəsilə daşıyıcıların elektron qeydiyyatı, elektron əmtəə-nəqliyyat qaiməsinin tərtibi, fərqlənmə nişanlarının və beynəlxalq daşımalar üçün icazə blanklarının verilməsi, şəhərlərarası avtobus biletlərinin onlayn satışı, elektrik doldurma məntəqələrinin məlumat bazası, elektron formulyarların hazırlanması, rəqəmsal taxoqraf kartları üçün müraciətlər, avtovağzal və avtostansiyalara pasportların verilməsi, iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinə xüsusi icazələrin rəsmiləşdirilməsi, həmçinin reysqabağı texniki baxış və tibbi müayinələrin elektron uçotu həyata keçirilir.

Hazırda AYNA-nın ən mühüm innovativ layihələrindən biri "Rəqəmsal Əkiz" platformasıdır. "Bakı şəhərinin virtual modelini yaradan bu sistem süni intellekt və "Big Data" texnologiyalarından istifadə etməklə real vaxt rejimində məlumatları emal edir, nəqliyyat axınlarını təhlil edir və proqnozlaşdırır. Platforma yol infrastrukturunun səmərəliliyinin qiymətləndirilməsi, sıxlığın azaldılması, avtobus marşrutlarının optimallaşdırılması, ictimai nəqliyyatın əlçatanlığının artırılması, eləcə də qəza və təmir zamanı alternativ hərəkət ssenarilərinin hazırlanmasına imkan verir. Taksi sahəsində tətbiq olunan "E-taksi" altsistemi və "Taksi Rəqəmsal Əkiz" platforması operatorlardan alınan adsızlaşdırılmış məlumatları real vaxtda emal edərək bazarı təhlil edir. Bu sistem taksi kvotalarının müəyyənləşdirilməsi, sıxlığın və sərnişin axınının analiz edilməsi, həmçinin icazə və buraxılış kartlarının tam rəqəmsal idarə olunmasını təmin edir", - deyə məlumatda vurğulanır.

AYNA-dan bildirilib ki, rəqəmsallaşma istiqamətində mühüm yeniliklərdən biri də SİMA rəqəmsal identifikasiya sisteminin taksi platformalarına inteqrasiyasıdır. Verilən məlumata görə biometrik identifikasiya sürücünün şəxsiyyətini təsdiqləyir, qeydiyyatdan keçmiş avtomobildən fərqli nəqliyyat vasitəsi ilə fəaliyyət göstərilməsi və ya sürücü hesabından başqa şəxslərin istifadə etməsi kimi halların qarşısını alır. İctimai nəqliyyatda da rəqəmsal həllər geniş tətbiq olunur. Sərnişinlər fiziki "BakıKart", mobil tətbiqlər vasitəsilə yaradılan QR-kod, eləcə də NFC texnologiyasını dəstəkləyən bank kartları və mobil cihazlarla ("Apple Pay" və "Google Pay") ödəniş edə bilirlər. Bu sistem hazırda Bakı şəhərində nağdsız ödəniş sistemi tətbiq olunan bütün avtobus marşrutlarında, Gəncə, Xankəndi şəhərdaxili avtobuslarında, eləcə də Bakı-Sumqayıt marşrutlarında istifadə olunur.

Agentlikdən əlavə edilib ki, sənəd dövriyyəsinin rəqəmsallaşdırılması məqsədilə Ədliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sistemlərindən real vaxt rejimində məlumat əldə olunur. Bundan əlavə, İcbari Sığorta Bürosu və Əmlak Məsələləri Dövlət Xidmətinin reyestrləri vasitəsilə sığorta və mülkiyyət hüquqları avtomatik yoxlanılır. Hazırda "MyGov Biznes" portalı ilə də inteqrasiya işləri davam etdirilir. Bu əməkdaşlıq sahibkarlara digər rəqəmsal xidmətlərə vahid biznes ekosistemi üzərindən çıxış imkanı yaradır və sənəd dövriyyəsinin tamamilə kağızsız formada aparılmasını təmin edir.

AYNA Təlim-Tədris Mərkəzində beynəlxalq yük və sərnişin daşıyan sürücülər, eləcə də taksi sürücüləri üçün təlimlər "ayna.emp-ro.az" platforması vasitəsilə onlayn və ya əyani formatda keçirilir. Kağız üzərində aparılan bir çox proses elektron iş axınları ilə əvəz edilib, sənəd dövriyyəsi və qərarların razılaşdırılması tam rəqəmsal mühitə keçirilib. Hazırda AYNA-nın təqdim etdiyi xidmətlərin təxminən 90 faizi tam rəqəmsal formatda göstərilir və rəqəmsallaşdırma prosesi mərhələli şəkildə davam etdirilir.

**"Biletim.az" portalı üzərindən onlayn bilet alanların sayı 1,8 dəfə artıb**

Öz növbəsində, vətəndaşların rəqəmsal platformaların istifadəyə üstünlük vermələri məmnunluq doğurur. Cari ilin 5 ayı ərzində "biletim.az" portalı vasitəsilə onlayn qaydada 456 min 195 bilet əldə edilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə çoxdur.

2025-ci ilin yanvar-may ayları ərzində qabaqcadan satış üzrə biletlərin xüsusi çəkisi 31,8 faiz idisə, cari ilin müvafiq dövründə bu göstərici 43 faizə yüksəlib. Bu artım sərnişinlərin avtovağzal xidmətlərinə etimadının artdığını və səfərlərini planlaşdırarkən onlayn bilet alışı imkanlarından daha fəal istifadə etdiklərini göstərir.

Hazırda "biletim.az" portalında 58 məntəqəyə 94 istiqamət üzrə bilet almaq mümkündür. Sistemə 364 reys olmaqla 411 nəqliyyat vasitəsi qoşulub. Onlayn bilet satışı sistemi mərhələli şəkildə sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcı və avtovağzalları əhatə edəcək.

Vaxta qənaət və müştəri məmnuniyyətinin təmin edilməsi məqsədilə "biletim.az" üzərindən tətbiqə giriş zamanı "myGov ID ilə giriş" funksionallığı təmin edilib. Eyni zamanda, istifadəçilərə əldə edilən bilet üzrə seçilmiş oturacaq yerinin dəyişdirilməsi və seçilmiş reys üzrə çıxış vaxtının digər reysə (saata) dəyişdirilməsi imkanı da yaradılıb.

Bu funksionallıqlar sayəsində istifadəçilər ilkin qeydiyyat zamanı portala birbaşa və sürətli giriş, həmçinin əvvəlcədən əldə etdikləri elektron biletlər üzrə yerdəyişmə və ya bilet dəyişdirmə imkanı əldə ediblər.

**Xidmət asanlaşır, əlçatanlıq artır, vətəndaş məmnunluğu yüksəlir**

AYNA-nın məlumatında qeyd edilib ki, rəqəmsal həllərin tətbiqi vətəndaşlarla qarşılıqlı əlaqənin daha rahat və çevik qurulmasına imkan yaradıb. Bildirilir ki, artıq daşıyıcılar, sərnişinlər və sürücülər bir çox xidmətdən istənilən vaxt, istənilən yerdə elektron qaydada istifadə edə, müraciətlərini, eləcə də ödənişlərini onlayn həyata keçirə və müraciətlərinin icra vəziyyətini real vaxt rejimində izləyə bilirlər. Elektron xidmətlərin genişləndirilməsi dövlət qurumlarına fiziki müraciətlərin və növbələrin sayını azaldıb, xidmətlərin göstərilmə müddətini xeyli qısaldıb. Eyni zamanda, elektron sənəd dövriyyəsi həm insanların vaxtına qənaət edir, həm də dövlət resurslarından daha səmərəli istifadəyə imkan yaradır.

Agentlikdən bildirilib ki, rəqəmsal sistemlər şəffaflığın artırılmasına da müsbət təsir göstərir. "Müraciətlərin bütün mərhələləri elektron qaydada qeydə alındığı üçün proseslər izlənilə bilir, insan amilindən asılılıq azalır və xidmətlərin keyfiyyəti yüksəlir. AYNA-nın təqdim etdiyi mühüm rəqəmsal həllərdən biri də "AYNA MaaS" mobil tətbiqidir. Tətbiq ictimai nəqliyyatdan istifadəni daha rahat və səmərəli edir. İstifadəçilər marşrutlarını planlaşdıra, dayanacaqlar barədə məlumat əldə edə və avtobusların hərəkətini real vaxt rejimində izləyə bilirlər. Bu da avtobusun dayanacağa çatma vaxtını əvvəlcədən görməyə, gözləmə müddətini azaltmağa və səfərləri daha səmərəli planlaşdırmağa imkan verir", - deyə məlumatda bildirilir.

**Digər dövlət qurumları ilə sıx inteqrasiya**

Rəqəmsal platformaların əsas üstünlüklərindən biri də ondan ibarətdir ki, elektron məkanda AYNA-nın digər digər dövlət ququmları ilə sıx inteqrasiyası təmin edilir. Hazırda AYNA rəqəmsal hökumət ekosisteminin fəal iştirakçılarından biridir və müxtəlif dövlət qurumlarının informasiya sistemləri ilə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir.

Agentliyin xidmətləri "digital bridge" platforması üzərindən təqdim edilir. Eyni zamanda, aidiyyəti dövlət qurumlarının informasiya sistemləri ilə məlumat mübadiləsi aparılır. Bu, vətəndaş və sahibkarlardan eyni məlumatın təkrar tələb olunmasının qarşısını alır və xidmətlərin daha operativ göstərilməsini təmin edir. AYNA İnformasiya Sistemi Dövlət Vergi Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Gömrük Komitəsinin məlumat bazaları ilə birbaşa inteqrasiya olunub. Ödənişlərin şəffaf uçotu üçün Hökumət Ödəniş Portalı (GPP) ilə tam əlaqə yaradılıb.

*Mübariz ABDULLAYEV*

# Türkiyədə ana müxalifət partiyası ikiyə bölünür: Özəldən yeni partiya qərarı

Türkiyənin Apellyasiya Məhkəməsinin Cümhuriyyət Xalq Partiyası (CHP) ilə bağlı aldığı "mütləq etibarsızlıq" (mutlak butlan) qərarından sonra ölkənin ana müxalifət partiyasında rəhbərlik məsələsi ilə bağlı mübahisələr yaranıb. Bunun fonunda ölkədə ana müxalifət partiyası ikiyə bölünüb və yeni siyasi partiyanın yaradılması prosesi gündəmə gəlib.



AZƏRTAC xəbər verir ki, CHP-nin sabiq sədri Özgür Özəl 91 millət vəkili ilə birlikdə rəsmi şəkildə CHP-dən istefa edib. Bununla da CHP-nin Türkiyə Böyük Millət Məclisindəki mandat sayı 44-ə enib.

Özgür Özəl yeni partiyasının yaradılması ilə bağlı təsis sənədini də imzalayıb. CHP-dən ayrılan 91 deputatın imzası ilə partiyanın qeydiyyatı üçün müraciət Türkiyənin Daxili İşlər Nazirliyinə təqdim olunacaq.

İddialara əsasən, yeni partiya üçün ilk seçim "Yeni Parti" (Yeni Partiya) adı olsa da, hüquqi manеə yaranacağı təqdirdə "Değişim Partisi" (Dəyişiklik Partiyası) daxil olmaqla alternativ adlar da nəzərdən keçirilir.

Özəlin komandasının artıq partiyanın baş qərargahı üçün ilkin razılıq əldə etdiyi, ilk aylardakı xərclərin qanunvericiliyə uyğun şəkildə üzvlərin və tərəfdarların ianələri hesabına qarşılanmasının planlaşdırıldığı bildirilir.

CHP rəhbərliyi isə yeni partiyanın yaradılması təşəbbüsünü tənqid edib. Partiya sözçüsü Müslim Sarı bildirib ki, Özgür Özəl və tərəfdarları CHP-nin siyasi xəttindən fərqli ideoloji mövqe ortaya qoya bilmirlər və bu səbəbdən yeni partiya yaratmaq cəhdini əsaslandırmaq çətindir. Onun sözlərinə görə, siyasi mübarizə partiya daxilində aparılmalı idi.

# "The New York Times": İran ABŞ-ın atəşkəs təklifini rədd edib

İran ABŞ Prezidenti Donald Trampın atəşkəs təklifini rədd edib.



AZƏRTAC xəbər verir ki, bu barədə "The New York Times" qəzeti mənbələrə istinadla məlumat yayıb.

Məlumata görə, İraqın Baş naziri Əli əl-Zeydi Tehrana səfəri zamanı ABŞ-ın atəşkəs təklifini İran rəhbərliyinə təqdim edib. Lakin İran tərəfi Hörmüz boğazı ilə bağlı məsələləri əhatə etməyən müvəqqəti razılaşmada maraqlı olmadığını bildirərək təklifi qəbul etməyib.

Qeyd olunur ki, Əli əl-Zeydi Tehranda Prezident Məsud Pezeşkian, parlament sədri Məhəmməd Bağır Qalibaf və xarici işlər naziri Abbas Əraqçi ilə görüşüb.

# Avropa yenidən silahlanır

İkinci Dünya müharibəsinin başa çatmasından sonra Avropa qitəsinin təhlükəsizlik modeli əsasən iki prinsip üzərində qurulmuşdu. Birincisi, ABŞ-ın təhlükəsizlik zəmanəti və NATO çərçivəsində kollektiv müdafiə sistemi. İkincisi isə iqtisadi inteqrasiyanın müharibə riskini minimuma endirəcəyi barədə siyasi konsepsiya. Onilliklər ərzində bu model uğurlu hesab edilirdi. Avropa dövlətləri müdafiə xərclərini nisbətən aşağı səviyyədə saxlayır, əldə olunan maliyyə resurslarını sosial rifahın yüksəldilməsinə, səhiyyəyə, təhsilə və innovasiyalara yönəldirdi.

Lakin XXI əsrin ikinci onilliyinin sonlarından etibarən beynəlxalq təhlükəsizlik mühiti əsaslı şəkildə dəyişməyə başladı. Ukraynada davam edən müharibə, Yaxın Şərqdə silahlı qarşıdurmalar, Qırmızı dənizdə ticarət marşrutlarına qarşı təhlükələr, Asiya-Sakit okean regionunda artan rəqabət və kibərməkanda yeni təhdidlər Avropanı uzun illər alışdığı təhlükəsizlik modelinə yenidən baxmağa məcbur etdi. Ankarada keçirilmiş NATO Sammitində aparılan müzakirələr də göstərdi ki, artıq əsas məsələ mövcud silah ehtiyatlarının qorunması yox, müdafiə sənayesinin genişmiqyaslı şəkildə yenidən qurulmasıdır.



## Sülh dövrü başa çatır, yoxsa yeni təhlükəsizlik sistemi qurulur?

Əslində, bu proses təkcə hərbi sahəyə aid deyil. Bu, Avropanın iqtisadi, sənaye və siyasi strategiyasında köklü dəyişiklik deməkdir. Son illərdə Avropa İttifaqı ilk dəfə olaraq müdafiə sənayesini yalnız təhlükəsizlik məsələsi kimi yox, iqtisadi inkişafın və texnoloji innovasiyanın aparıcı istiqamətlərindən biri kimi qiymətləndirməyə başlayıb. Müasir dövrdə tank, raket və ya döyüş təyyarəsi istehsal edən zavod təkcə hərbi müəssisə deyil, minlərlə yüksək ixtisaslı iş yeri yaradan, elmi tədqiqatları maliyyələşdirən və yeni texnologiyaların inkişafına təkan verən sənaye kompleksidir.

Ankara Sammitinin ən mühüm siyasi mesajlarından biri də məhz bu idi. NATO artıq üzv dövlətlərdən yalnız müdafiə büdcələrini artırmağı tələb etmir. Alyans müdafiə sənayesinin istehsal gücünün artırılmasını, sursat ehtiyatlarının bərpasını, hərbi-logistika imkanlarının genişləndirilməsini və yeni texnologiyaların istehsal prosesinə sürətli inteqrasiyasını strateji prioritet kimi müəyyənləşdirir. Bu yanaşma göstərir ki, müasir təhlükəsizlik anlayışı döyüş meydanından daha çox istehsal zəncirində formalaşır.

Son üç il ərzində Avropa ölkələrinin müdafiə xərclərində müşahidə olunan artım təsadüfi deyil. Almaniya müdafiə fondunun yaradılması barədə qərar qəbul edib, Polşa silahlı qüvvələrinin modernləşdirilməsinə rekord həcmdə vəsait ayırır, Baltikyanı ölkələr hava hücumundan müdafiə sistemlərini gücləndirir, Skandinaviya dövlətləri isə NATO çərçivəsində hərbi koordinasiyanı genişləndirir. Bir neçə il əvvəl yalnız siyasi bəyanat kimi görünən "Avropanın strateji muxtariyyəti" ideyası artıq konkret sənaye layihələri, birgə silah istehsalı proqramları və yeni müdafiə fondları ilə müşayiət olunur.

Bu dəyişikliklərin əsas səbəblərindən biri də ABŞ-ın Avropadan daha böyük məsuliyyət gözləməsidir. Vaşinqton uzun illərdir bildirir ki, Avropa öz təhlükəsizliyinə daha çox investisiya yatırmalıdır. Son dövrdə bu çağırışlar konkret nəticələr verməyə başlayıb. NATO üzvlərinin böyük hissəsi müdafiə xərclərini artırır və bu proses yaxın illərdə də davam edəcək.

Lakin Avropanın yenidən silahlanmasını yalnız hərbi təhlükə ilə izah etmək düzgün olmaz. Burada iqtisadi motivlər də mühüm rol oynayır. Müdafiə sənayesi yüksək texnologiyalar bazarının ən dinamik istiqamətlərindən biridir. Süni intellekt, pilotsuz sistemlər, kvant rabitəsi, kibertəhlükəsizlik, kosmik texnologiyalar və mikroelektronika sahəsində əldə edilən yeniliklər əvvəlcə hərbi məqsədlərlə hazırlanır, sonra mülki iqtisadiyyata tətbiq olunur. Yaxın tarix bunu dəfələrlə sübuta yetirib. İnternet, GPS, pilotsuz sistemlər və bir çox digər texnologiya əvvəlcə müdafiə layihələri çərçivəsində yaradılsa da, sonradan gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib.

Bu baxımdan Avropa müdafiə sənayesinə yatırılan investisiyalar həm də texnoloji müstəqillik uğrunda aparılan rəqabətin tərkib hissəsidir. Qlobal istehsal zəncirlərində baş verən dəyişikliklər göstərdi ki, strateji məhsullar üzrə xarici asılılıq dövlətlərin təhlükəsizliyi üçün ciddi risk yarada bilər. Məhz buna görə Avropa mikroçiplərin, kritik xammalın, enerji avadanlıqlarının və müdafiə texnologiyalarının istehsalını öz ərazisində genişləndirməyə çalışır.

Bu prosesdə Türkiyənin rolu xüsusi diqqət çəkir. Son on ildə müdafiə sənayesində əldə etdiyi uğurlar nəticəsində Ankara artıq Avropa təhlükəsizlik sistemində yalnız istehlakçı yox, istehsalçı ölkə kimi qəbul olunur. Pilotsuz uçuş aparatları, raket kompleksləri, hərbi gəmiqayırma layihələri və yeni nəsil aviasiya proqramları Türkiyəni NATO daxilində mühüm sənaye mərkəzlərindən birinə çevirib. Bu amil Avropanın müdafiə sənayesi ilə Türkiyə arasında əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyini göstərən mühüm siqnallardan biridir.

Yeni geosiyasi reallıq Azərbaycan üçün də əhəmiyyətli imkanlar açır. Dünyada enerji təhlükəsizliyi məsələsinin yenidən ön plana çıxması Azərbaycanın strateji əhəmiyyətini artırır. Avropanın alternativ enerji mənbələrinə və etibarlı nəqliyyat marşrutlarına artan ehtiyacı Bakı ilə Brüssel arasında əməkdaşlığın dərinləşməsinə səbəb olur. Orta Dəhlizin inkişafı və Xəzər regionunun tranzit potensialı Azərbaycanın logistika baxımından da əhəmiyyətini yüksəldir.

Lakin bu proseslərin başqa tərəfi də var. Silahlanmanın sürətlənməsi təhlükəsizlik zəmanəti yaratsa da, qarşılıqlı etimadın azalması riskini artırır. Tarix göstərir ki, silahlanma yarışları çox vaxt çəkindirmə funksiyası yerinə yetirsə də, bəzi hallarda yanlış hesablamalar və siyasi böhranlar nəticəsində daha böyük qarşıdurmalara yol aça bilir. Buna görə də müdafiə potensialının gücləndirilməsi ilə diplomatik dialoqun paralel aparılması beynəlxalq sabitliyin əsas şərtlərindən biri olaraq qalır.

Ankara NATO Sammitindən sonra formalaşan ümumi mənzərə göstərir ki, Avropa artıq əvvəlki təhlükəsizlik modelinə qayıtmayacaq. Qitə uzunmüddətli strateji rəqabət dövrünə uyğunlaşır. Bu mərhələdə iqtisadiyyat, müdafiə sənayesi, texnologiya və təhlükəsizlik bir-birindən ayrılmaz sahələrə çevrilir. Gələcəyin güclü dövlətləri yalnız böyük ordulara malik olanlar deyil, eyni zamanda güclü sənaye bazası, innovasiya potensialı və dayanıqlı iqtisadiyyata malik ölkələr olacaq.

Məhz buna görə Ankara Sammiti sadəcə NATO-nun növbəti toplantısı kimi yox, Avropanın təhlükəsizlik fəlsəfəsinin dəyişdiyini göstərən siyasi dönüş nöqtəsi kimi qiymətləndirilməlidir. Qarşıdakı illərdə Avropada daha çox müdafiə layihələri, yeni sənaye ittifaqları və texnoloji əməkdaşlıq proqramları görəcəyik. Bu proses bütün beynəlxalq münasibətlər sisteminin gələcək inkişaf trayektoriyasına təsir göstərəcək. Azərbaycanın da yeni reallıqda strateji mövqeyini gücləndirməsi, enerji, nəqliyyat və yüksək texnologiyalar sahəsində tərəfdaşlıqlarını genişləndirməsi milli maraqlar baxımından mühüm əhəmiyyət kəsb edəcək. Bu, artıq təkcə regional siyasətin deyil, yeni qlobal təhlükəsizlik arxitekturasının ayrılmaz hissəsinə çevrilən bir prosesdir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Vaşinqtonun yeni Yaxın Şərq strategiyası

## Güc siyasəti, enerji təhlükəsizliyi və dəyişən geosiyasi nizam

### Hörmüz boğazından başlayan böyük geosiyasi oyun

XXI əsrin beynəlxalq münasibətlər sistemi yenidən tarixi dönüş nöqtəsinə yaxınlaşır. Ukrayna müharibəsi hələ başa çatmamış Yaxın Şərqdə artan gərginlik, Sakit okean hövzəsində ABŞ-Çin rəqabətinin dərinləşməsi, Avropanın sürətlə hərbiləşməsi və enerji bazarlarında davam edən qeyri-müəyyənlik göstərir ki, dünya artıq əvvəlki təhlükəsizlik modelindən uzaqlaşır. Bu yeni geosiyasi mənzərənin mərkəzində isə yenə də Yaxın Şərq dayanır. Son aylarda ABŞ və İran arasında münasibətlərin kəskinləşməsi, Hörmüz boğazı ətrafında yaranmış gərginlik və qarşılıqlı hərbi addımlar beynəlxalq ictimaiyyətin diqqətini bir daha bu regiona yönəltdi. ABŞ İranın hərbi imkanlarını zəifltəməyə yönəlmiş zərbələr endirir, İran isə buna cavab olaraq regiondakı ABŞ obyektlərini hədəfə alır. Hadisələrin inkişafı enerji bazarlarında ciddi narahatlıq yaradıb, beynəlxalq daşımaların təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib. Hörmüz boğazı dünya neft və mayeləşdirilmiş qaz ticarətinin əsas arteriyalarından biridir, ona görə də burada yaranan hər hansı uzunmüddətli böhran enerji qiymətlərinə, inflyasiyaya, beynəlxalq logistika zəncirlərinə, nəticədə, qlobal iqtisadi artıma birbaşa təsir göstərir.

ABŞ administrasiyası Yaxın Şərq siyasətini tədricən yenidən formalaşdırır. Bir tərəfdən Vaşinqton Hind-Sakit okean regionunu prioritet elan edir, digər tərəfdən Yaxın Şərqin tamamilə nəzarətdən çıxmasını ABŞ-ın milli təhlükəsizlik maraqlarına və qlobal iqtisadi sabitliyə ciddi risk sayır. Məhz buna görə Vaşinqton regionda iki əsas məqsədi paralel şəkildə həyata keçirməyə çalışır: beynəlxalq enerji marşrutlarının təhlükəsizliyini qorumaq; İranın regional hərbi təsir imkanlarını məhdudlaşdırmaq. Bu strategiya ABŞ-ın uzun illər formalaşdırdığı çəkindirmə (deterrence) konsepsiyasının davamı kimi qiymətləndirilə bilər. Lakin bu dəfə vəziyyət əvvəlkilərdən daha mürəkkəbdir. İran həm hərbi imkanlarını artırıb, həm də regionda müxtəlif müttəfiq aktorlarla əlaqələrini gücləndirib. Eyni zamanda, Çin və Rusiya kimi böyük güclərin Yaxın Şərqdə artan diplomatik və iqtisadi fəallığı Vaşinqtonun qərarlarını daha həssas edir.

Bu gün beynəlxalq ictimaiyyəti narahat edən əsas məsələ təkcə ABŞ-İran münasibətləri deyil. Əsas sual budur: Hörmüz boğazında uzunmüddətli böhran yaranarsa, dünya enerji bazarları buna tab gətirə biləcəkmi, yeni inflyasiya dalğası başlayacaqmı, Avropa iqtisadiyyatı yenidən enerji böhranı ilə üzləşəcəkmi, Asiyanın sənaye nəhəngləri alternativ marşrutlar tapa biləcəkmi? Məhz bu suallar Vaşinqtonun qərarlarını qlobal miqyasda əhəmiyyətli edir.

Müasir beynəlxalq münasibətlərdə dövlətlər yalnız öz sərhədlərini yox, həm də iqtisadi marşrutları, enerji dəhlizlərini, texnologiya zəncirlərini və informasiya məkanını qorumağa çalışır. ABŞ-İran qarşıdurması da məhz bu səbəbdən regional hadisə olmaqdan çıxaraq qlobal geosiyasi sınağa çevrilib. Ən diqqətçəkən məqam ondan ibarətdir ki, dünyanın aparıcı dövlətləri eyni hadisəyə müxtəlif prizmadan yanaşır. Onların mövqeləri ilk baxışdan ziddiyyətli görünsə də, hər biri öz milli maraqları çərçivəsində məntiqidir.

Vaşinqton hesab edir ki, Hörmüz boğazı üzərində hər hansı dövlətin faktiki nəzarət yaratması beynəlxalq dəniz hüququnun pozulması və dünya iqtisadiyyatı üçün ciddi riskdir. ABŞ administrasiyası buna görə regiondakı hərbi mövcudluğunu "enerji təhlükəsizliyi" və "azad gəmiçilik" prinsipləri ilə əsaslandırır. Son günlər ABŞ rəsmiləri İranın boğazda hücumları dayandırması və bütün marşrutların maneəsiz açılması ilə bağlı açıq öhdəlik götürməsini tələb ediblər. "Reuters"-in enerji analitikləri qeyd edirlər ki, Hörmüzdə uzunmüddətli qeyri-sabitlik təkcə Yaxın Şərq üçün yox, Asiya və Avropanın enerji təhlükəsizliyi üçün də ciddi nəticələr doğura bilər. Buna görə də Vaşinqton öz siyasətini qlobal ticarətin qorunması kimi qələmə verir.

Brüssel üçün prioritet müharibənin genişlənməsinin qarşısını almaqdır. Avropa İttifaqı bir tərəfdən İranın nüvə proqramı və regiondakı hərbi fəaliyyətindən narahatdır, digər tərəfdən isə enerji bazarlarında yeni şokun Avropa iqtisadiyyatına ağır zərbə vuracağını anlayır. BBC, "Le Monde" və "Der Spiegel"-də dərc olunan təhlillərə inansaq, Avropa hərbi eskalasiyanın yox, diplomatik kanalların qorunmasının tərəfdarıdır. Bununla belə, Avropa dövlətləri ABŞ-la strateji tərəfdaşlığı da zəiflətmək istəmir. Bu səbəbdən Brüsselin siyasəti "çəkindirmə ilə dialoq" modeli üzərində qurulub.

Pekin hadisələrə daha çox geoiqtisadi prizmadan baxır. Çin dünyanın ən böyük enerji idxalçılarından biridir və Hörmüz boğazında yaranan hər hansı böhran onun sənayesinə, ixrac potensialına birbaşa təsir göstərir. Çin rəhbərliyi açıq şəkildə hərbi eskalasiyanın əleyhinə çıxış etsə də, birtərəfli sanksiyaların genişləndirilməsinə də ehtiyatla yanaşır. Beynəlxalq analitiklər hesab edirlər ki, Pekin hazırkı mərhələdə "strateji gözləmə" siyasəti yürüdür. Çin nə ABŞ-la açıq qarşıdurmaya getmək, nə də İranı tamamilə itirmək istəyir. Onun əsas marağı enerji marşrutlarının işlək qalması və "Bir kəmər, bir yol" layihəsinin təhlükəsizliyidir.



### Dünya liderləri hansı mövqedədir?

Moskva hadisələri ABŞ-ın Yaxın Şərqdə təsir imkanlarının sınağı kimi qiymətləndirir. Rusiya bir tərəfdən İranla strateji münasibətləri qoruyur, digər tərəfdən regionun tamamilə nəzarətdən çıxmasının öz maraqlarına da uyğun olmadığını anlayır. Rəsmi Moskvanın bəyanatlarında əsas vurğu diplomatik həll yollarına salınır. Bununla yanaşı, beynəlxalq münasibətlər üzrə bir çox rusiyalı ekspert hesab edir ki, uzunmüddətli qeyri-sabitlik enerji qiymətlərinin yüksəlməsi səbəbindən Rusiya iqtisadiyyatı üçün müəyyən üstünlüklər yarada bilər. Lakin bu üstünlüklər qlobal iqtisadi tənəzzül riski ilə balanslaşdırılır.

Ankara son illər xarici siyasətində vasitəçilik diplomatiyasını gücləndirib. Türkiyə həm NATO üzvüdür, həm də İranla geniş iqtisadi əlaqə saxlayır. Bu səbəbdən Ankara açıq şəkildə tərəf seçməkdən çox danışıq platformalarının genişləndirilməsini dəstəkləyir. Türkiyə ekspertləri hesab edirlər ki, Yaxın Şərqdə davamlı sabitlik yalnız regional dövlətlərin də iştirak etdiyi çoxtərəfli təhlükəsizlik mexanizmi yaradıldığı halda mümkün ola bilər.

Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, Küveyt və Bəhreyn üçün əsas məsələ iqtisadi sabitlikdir. Onların büdcələri enerji ixracından asılıdır. Müharibənin genişlənməsi isə neft infrastrukturunu, limanları, beynəlxalq investisiyaları, logistikanı risk altına salır. Buna görə də Körfəz ölkələri bir tərəfdən ABŞ təhlükəsizlik zəmanətlərini qorumağa çalışır, digər tərəfdən İranla tam qarşıdurmadan yayınmağa səy göstərir.

İsrail rəhbərliyi İranın nüvə və raket proqramını ölkəsinin milli təhlükəsizliyi üçün əsas təhdid sayır. Bu səbəbdən Təl-Əviv Vaşinqtonun sərt xəttini dəstəkləyən azsaylı aktorlardan biridir. Bir sıra təhlükəsizlik analitikinin fikrincə, İsrail hesab edir ki, İranın hərbi potensialının zəiflədilməsi regionda uzunmüddətli çəkindirmə balansını gücləndirə bilər.

### Beynəlxalq media hadisələrə necə baxır?

Maraqlı məqam ondan ibarətdir ki, aparıcı beynəlxalq media orqanlarının təhlillərində ton fərqli olsa da, bir ümumi nəticə görünür. "Reuters" diqqəti daha çox enerji bazarları və iqtisadi nəticələrə yönəldir. Analitiklər hesab edirlər ki, bazarlar hələ də riskləri tam qiymətləndirmir və uzunmüddətli böhran qiymətlərə daha ciddi təsir göstərə bilər. CNN-də yayımlanan şərhlərdə əsas sual bundan ibarətdir: ABŞ və İran eskalasiyanı müharibə üçünmü artırır, yoxsa daha sərt şərtlərlə danışıqlara qayıtmaq üçün? Bu yanaşma "eskalasiya yolu ilə danışıqlar" modelini müzakirəyə çıxarır. "The Guardian" isə humanitar nəticələrə diqqət çəkərək mülki infrastrukturun zərər görməsi və regional sabitliyin pozulmasının yaratdığı riskləri ön plana çıxarır. Beləliklə, müxtəlif siyasi baxışlara malik media platformalarının təhlillərində belə bir ortaq məxrəcə gəlinir: hərbi eskalasiya davam etdikcə diplomatik həll daha da çətinləşir, lakin enerji təhlükəsizliyi və beynəlxalq ticarətin qorunması bütün tərəflərin ortaq marağı olaraq qalır. Tarix göstərir ki, Yaxın Şərqdə hərbi üstünlük qazanmaq siyasi sabitlik yaratmaq demək deyil. Əfqanıstan, İraq, Suriya və Yəmən təcrübələri bunu açıq şəkildə nümayiş etdirib. Digər tərəfdən, beynəlxalq ticarətin və enerji marşrutlarının təhlükəsizliyi də dövlətlərin legitim marağıdır. Buna görə də əsas sual artıq "kim qalib gələcək?" yox, "gərginliyi necə idarə etmək olar?" sualıdır. Bu məsələdə beynəlxalq analitiklər arasında tam fikir birliyi olmasa da, bir neçə ortaq yanaşma formalaşıb.

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Şənbə üçün nəzm







*Xəzər Süleymanlı*

Deyirlər, küsmüsən bəxtə, qismətə,
Qırışıb üz-gözün, ağarıb saçın,
Nəinki sevgiyə, saf məhəbbətə,
Bircə xoş sözə də var ehtiyacın...

Deyirlər, hər səhər əlin əsərək,
Köhnə bir şəkli öpüb gülürsən,
Ayağın tutulub qoca qarıtək,
Divardan yapışıb gəzə bilirsən...

Deyirlər, bir sənsən, bir də boş otaq,
Təkliyə qapılıb fikirləşirsən,
Kiminsə adını sayıqlayaraq,
Özündən çıxırsan, əsəbiləşirsən...

Deyirlər, ilk görüş yerindən hər gün,
Boş oturacağa baxıb keçirsən
Gözünün yaşını gizlətmək üçün,
Əlini üzünə sıxıb keçirsən...

Deyirlər, yalandan gülürsən üzdə,
Ürəyin kədərə bürünür yenə,
Hər gecə qaranlıq həyətinizdə,
Bir kişi kölgəsi görünür yenə...

***

Yoxluğun çətindir mənə əzizim.
Bəlkə qayıdasan...? Düşün dərindən.
Bir məktub yazıram sənə, əzizim,
Ayrılıq gününün ilk səhərindən.

Bu evdə hələ də var ayaq izin,
Otaqdan-otağa aparır məni.
Daraqda saçların, güzgüdə üzün,
Mən necə bir yerə toplayım səni?

Ümidim əriyir daha get-gedə,
Qəlbimin küncünə qısılıb qalıb.
Sənin ən sevdiyin köynəyimdə də,
Saçının bir teli asılıb qalıb...

Ağlıma gəlməyən başıma gəldi.
Bəlkə biz bu işə bir əlac qılaq?
Görüşüb ayrılmaq xoşuma gəldi,
Gəl yenə görüşək, yenə ayrılaq...

Gəl yenə görüşək, bir sevgi istə,
Saxta gülüşlərlə, saxta baxışla,
Yenə də adi bir səhvimin üstə,
De ki, mən gedirəm, məni bağışla...

Mən də razılaşım, susum - lal kimi,
İzləsin qəm dolu baxışım səni.
Cavabı olmayan bir sual kimi,
Gələndən, gedəndən soruşum səni...

Kaş mənim yanımda qalaydın, ya da,
Nə bilim, başqa bir yolu seçəydin...
Ürəyin belə çox yanırdısa da,
Aramızdan keçən suyu içəydin...

***

Deyirlər, sən artıq çox dəyişmisən...
Əvvəlki adamdan əsər də yoxdur.
Deyirlər, tanınmaz hala düşmüsən,
Hardasan, necəsən, xəbər də yoxdur!

Gözüm bir nöqtəyə baxır anbaan,
Diqqət et, gör hardan-hara gəlmisən?
Ən uzun cümləyə sığmayan adam -
Kiçik bir nöqtəyə sığa bilmisən...

Gedənə ağlamaq qəribə işdir.
Gülümsə, gələndə... Ağla, gedəndə...
Səndən də heç gözüm su içməmişdi,
Bu qədər göz yaşı hardandı məndə?

***

Yuxumu gözümdən oğurlayan qız,
Ağ günə çıxdımı qara gözlərin?
Elə ağladım ki, arxanca sənin,
Yuyuldu yollardan ayaq izlərin...

Daha tükənmişəm, daha bitmişəm,
Sənin nə vecinə rahat yatırsan...
Mən sənə haqqımı halal etmişəm,
Sən niyə yuxuma haram qatırsan?

Qayıtmaz o günlər, bilirəm indi.
Qoyardın başını, sinəmə hərdən.
Gecəni ikiyə bölürəm indi,
O yanında sən yat, bu yanında mən...

# Nənəyə məktub

*Var, amma nənə tapılmır.*



*Məqsəd Nur*

Əgər nənə tapılsa, nağıl kitabını oxuyan da tapılacaq. Bəs görəsən, yaxın gələcəkdəki nənənin xarakteri, obrazı, davranışları necə olacaq? Ümumiyyətlə, nənə olacaqmı? Bizə nənə lazımdırmı?

Bir də məlum ola ki, nağıl da var, uşaq da, di gəl, nənə tapmaq müşkülə çevrilə. Lap Amerikadakı kimi. Təsəllivericі "Nənə hobbiləri"nin yenidən canlanması ABŞ-da sosial terapiya layihəsini populyarlaşdırıb. Yeni nəsil bu layihə çərçivəsində birlikdə - şən və əmin-amanlıq içərisində yaşamaq üçün əsrlər boyu nəsildən-nəslə ötürülmüş vərdiş və bacarıqları öz gündəlik həyatına tətbiq etməyə çalışır...

Layihə çərçivəsi yaxşıdır, amma həyatın öz çərçivəsi var. Çox vaxt da mürəkkəb, şorqoğal kimi lay-lay, bəzən də aşılıb-keçilməz...

"Yaşıl qapı" Xalq Məktəbində (əvvəllər bizdə də belə ictimai kurslar vardı) iştirak edənlərin əksəriyyəti "Z" nəslinin nümayəndələridir. Məsələn, qızlara da, oğlanlara da yorğan sırımaq öyrədilir. Hələ bu nədir, "subaylıq əyləncəsi" adı altında həsir hörmək, müxtəlif səbətlər hazırlamaq, primitiv halda kağız istehsal etmək, kitab cildləmək, arıçılıqla məşğul olmaq, corab toxumaq da gündəlik məşğuliyyətə daxildir.

Bir sözlə, praktik fəaliyyət gəncləri yaman həvəsləndirib. Xüsusilə, pandemiyadan sonra bu kurslara necə axın başlayıbsa, növbə yaranıb. Bircə, nənə gözə dəymir - nə layihənin icrasında iştirak edən menecerlər, nə də digər iştirakçılar arasında "əsl" nənə yoxdur. Buna nə hacət?

Bu tip xalq məktəbləri 1840-cı ildə Danimarkada pedaqoq Nikola Fredrik Sever tərəfindən yaradılıb. Təhsildə təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə (həmin illərdə biz övladlarımıza rus məktəblərində, yoxsa mədrəsələrdə təhsil verib-verməmək barədə düşünməyə başlamaq istəyirdik...) yaradılıb və bu model əvvəlcə bütün Skandinaviyaya, sonra isə ABŞ-a (1878) yayılaraq tanınıb. Xalq məktəbləri ənənəni qoruyub-saxlamaq və yaşatmaq naminə deyil, gələcək nəsli sürətlə dəyişən dünyamıza uyğunlaşdırmaq məqsədi güdür. Bax bu "güdümçülük" əsas məsələdir...

Üç il əvvəl uşaqların mütaliə vərdişlərinin artırılması məqsədilə bir layihədə iştirak edirdim. Məlum oldu ki, I-V siniflər arası uşaqlar öz nənələrinə bizim öyrəşdiyimiz nənə kimi baxmırlar. Yaxud əksinə - "nənə"lər nəvələrini "o cür görmürlər". Əgər bu tip kurslar təşkil edib, öyrəşdiyimiz kimi, hər şeyi nənənin (fərdin) üzərinə yükləsək, sistem yarada bilməsək, adət etdiymiz nənəlik də bizdən bezəcək. Azərbaycanda belə layihələr daha çox sosial sferaları əhatə edir, halbuki, "Mədəniyyət -2040" layihəsinin də predmeti ola bilər.

Adətən nənənlər məclisində alaçıq qurulur, həvəkdəstə qoyulub dəfə-daraq açılır. Ümumiyyətlə, təcrübəli nənələri bir araya yığıb göstərgə yaratmaq dövrü folklorda ilişib qaldı. Müasir nənələri bir yerə yığıb nə isə öyrətməyə və ya onlardan öyrənməyə cəhd etmək qəliz məsələdir: ən azı ona görə ki, sonda nə baş verəcəyini proqnozlaşdırmaq mümkün deyil. Bəs elan veribən, o elanda "nənənin vərdişləri" deyil, "nənənin hobbiləri" yazsaq, üstünə də əlavə olaraq nənələrə məktub yollasaq, desək ki, gəlin, hobbilərinizi göstərin - onda necə, gələn tapılar? Mənçə, müasirliyin çağırışına çevrilmiş bircə kəlmənin - "hobbi"nin gücünə inanmamaq mümkün deyil. Nənənin hobbisi ola bilməz?

# Əsrləri aşan söz sahibi!



## Sabirin yazdıqları zaman keçsə də köhnəlməyən həqiqətlərdir...

Xalqın ağrı-acısını, cəmiyyətin nöqsanlarını və dövrünün acı həqiqətlərini misilsiz bədii ustalıqla qələmə alan Mirzə Ələkbər Sabirin vəfatından illər keçməsinə baxmayaraq, onun qələminin gücü, fikirlərinin aktuallığı bu gün də öz əhəmiyyətini qoruyur. Zamanında heç bir şair özünü Mirzə Ələkbər Sabir qədər xalqa sevdirməmişdi. "Hophopnamə"nin döyməcliyi qapı, girmədiyi ev qalmadı, onu oxuyanlar da sevdi, oxudanlar da... Zəngin yaradıcılıq ənənələri və böyük tarixi olan Azərbaycan poeziyası əsrlərin qoynunda bir dağ silsiləsi kimi yüksəlirsə, M.Ə. Sabir onun ən uca, ən işıqlı və əzəmətli zirvələrindən biridir. O, şairliyin və sənətkarlığın əsasını xalqın intibahı uğrunda çalışmaqda, onu qəflət yuxusundan ayıltmaqda görürdü.

**Cəmi 6 ilə...**

Bu gün böyük şairin vəfatından 115 il ötür. Şair satirik ədəbiyyat və mətbuatda "Sabir" nam-nişanı ilə məşhur olsa da, dövründəki nöqsanlara səbirlə yanaşmadı. O, 43 yaşından sonra yazmağa başlayıb. 43 illik sükutdan sonra "Molla Nəsrəddin" jurnalını əlinə alan kimi nə yazmaq istədiyini başa düşdü. Cəmi altı ilə Azərbaycan ədəbiyyatının klassiki səviyyəsinə yüksəldi.

Onun adı Nizami, Xaqani, Füzuli, Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə kimi dahi söz ustaları ilə bir sırada çəkilir. Vaqif sadəliyi, Mirzə Cəlil demokratizmi, Füzuli psixologizmi, Nizami epizmi-bunların hamısı M.Ə.Sabirdə üzvi vəhdət təşkil edirdi.

**Çoxlu dost və düşmən qazanmışdı**

O, 1906-cı ildə "Molla Nəsrəddin" jurnalına öz arzularına müvafiq həqiqi bir xalq jurnalı kimi qarşılayıb onun ən sevimli şairi, ən fəal müəlliflərindən biri oldu. Bu zamandan Cəlil Məmmədquluzadə ilə arasında qırılmaz dostluq münasibətləri yarandı. Hər iki sənətkar əməkçi xalqın qanını soran zalım ağalara, yaltaq ruhanilərə sarsıdıcı zərbələr vururdu. Bütün bunların nəticəsi olaraq Sabir özünə çoxlu dost qazandığı kimi, düşmən də qazanmışdı. Şeirlərini gizli imzalarla yazmasına baxmayaraq, istər Şamaxıda və Bakıda, istərsə də Azərbaycanın başqa yerlərində və İranda bir çox irticaçılar şairin əsərlərini pisləyir, onun yazdığını oxuyanları kafir elan edirdilər. Hətta bəzən cahil "din xadimləri" Sabirin ölümünə fətva verir, varlılar ona hədələyici məktublar göndərir, qoçular küçədə yolunu kəsib ağır sözlər deyirdilər.

**Əvəzsiz bədii xəzinə...**

Onun yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşaq, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur. "Bilməm nə görübdür bizim oğlan oxumaqdan", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Uçitellər", "Müəllimlər syezdi", "Oxutmuram, əl çəkin", "Ürəfa marşı" və s. kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəb və təhsil düşmənlərinin ifşası, yalnız elm öyrənməklə özünüdərkin isbatı kimi öz dövrü üçün aktual olan məsələlərdən söz açılmışdı. Sabirin həmin maarifçilik fəaliyyəti bu gün də aktualdır.

Şairin yaradıcılığına boylanarkən onun uşaqlar üçün yazdığı çox gözəl şeirlərinə də rast gəlirik. "Uşaq və buz", "Yaz günləri", "Məktəb sərgisi", "Ağacların bəhsi", "Cütçü", "Qarğa və tülkü", "Uşaq və pul", "Qarınca", "Yalançı çoban", "Uşaqlara" və s. qeyd edə bilərik.

Cəmi 50 il ömür sürən dahi şair yalnız 5-6 il ardıcıl ədəbi yaradıcılıqla məşğul olub. Lakin bu qısa müddət ərzində elə böyük ədəbi irs qoyub ki, bu irs təkcə ədəbiyyatımız üçün deyil, bütün Şərq poeziyası üçün əvəzsiz bədii xəzinə sayılır.

Onun adı xalqın yaddaşında yalnız şair kimi deyil, həm də cəmiyyətin vicdanı, həqiqətin carçısı, maarifçiliyin yorulmaz təbliğatçısı kimi əbədi yaşayacaq. Sabirin irsi isə gələcək nəsillər üçün həmişə ilham, düşüncə və mənəvi kamillik mənbəyi olaraq qalacaqdır.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4491
Sifariş: 935
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova